Birinci vitse-prezident Mehriban Əliyeva Beynəlxalq Qadınlar Günü münasibətilə xanımları təbrik edib

Bax 6

"Azərbaycan haqqında qərəzli mövqedən çıxış edənlərin əsas məqsədi təzyiq göstərməkdir"

Bax 7

XİN: "Belçikada Natəvanın abidəsinə qarşı vandalizmin törədilməsi ilə bağlı cinayət işi açılıb"

Bax 9

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 047 (6012) **11 mart** 2020-ci il. **Qiyməti 40 qəpik** "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

Nazirlər Kabineti: makroiqtisadi sabitlik qorunacaq

Nazirlər Kabinetində neft bazarındakı vəziyyət, onun Azərbaycana təsirləri və qabaqlayıcı tədbirlər müzakirə olunub

Martın 10-da Azərbaycan Respublikasının Nazirlər Kabinetində Baş Nazir Əli Əsədovun sədrliyi ilə müşavirədə qlobal enerji bazarında vəziyyət və onun iqtisadiyyata təsirinə dair məsələlər müzakirə edilib. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirədə Azərbaycan Respublikası Prezidentinin...

İlham Əliyev: "Bütövlükdə seçkilər xalqımızın iradəsini tam ifadə etdi"

Bax 2

Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası keçirilib

Bax 6

Ermənistanda referendum oyunu

Bax 10

Əmanətlərin tam sığortalanması müddəti bu il dekabrın 4-dək uzadılır

Əmanətlərin tam sığortalanması müddətinin bu il dekabrın 4-dək uzadılması nəzərdə tutulur. Xezerxeber.azın məlumatına görə, bu, Prezident İlham Əliyevin imzası ilə Milli Məclisə daxil olmuş "Əmanətlərin tam sığortalanması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" qanun...

Bax 7



Messidən vəfa borcu: Ronaldinyo üçün 4 milyon avro ayırdı!

"Barselona"nın futbolçusu Lionel Messi hazırda həbsdə olan sabiq komanda yoldaşı Ronaldinyoya kömək etməyə qərar verib. Qol.az xarici KİV-lərə istinadən xəbər verir ki, argentinalı hücumçu Braziliya millisinin sabiq üzvü və qardaşının həbsdən çıxarılması üçün vəkil tutub. Messinin Ronaldinyonun zaminə buraxılmasına görə 4 milyon avro ödəməyə hazır olduğu...

Bax 16

Avantürist və satqın - Əli Kərimli

Bax 14

"Yeni parlament ölkəmizin hərtərəfli inkişafına yönələn təkmil qanunların qəbulunu daha da sürətləndirəcək"

Bax 9

Bəhruz Quliyev: "Bu, Azərbaycan xanımının əxlaqi-mənəvi dəyərlərinə hücum deməkdir"

Bax 9

İlham Əliyev: "Bütövlükdə seçkilər xalqımızın iradəsini tam ifadə etdi"

Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası keçirilib

Martın 10-da altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib. İclası Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev açaraq deputatları təbrik edib. Bildirib ki, Milli Məclisin Daxili Nizamnaməsinin 2-ci maddəsinə görə, parlamentin ilk iclasını ən yaşlı deputat aparır və bu missiya deputat Ziyad Səmədzadəyə nəsib olub.

İclasa sədrlik edən Ziyad Səmədzadə altıncı çağırış Milli Məclisin ilk iclasını açıq elan edib, altıncı çağırış Milli Məclisə seçilmiş deputatların siyahısını oxuyub.

Sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib. Prezident İlham Əliyev altıncı çağırış Milli Məclisin ilk iclasında nitq söyləyib.

Dövlətimizin başçısı altıncı çağırış Milli Məclisin fəaliyyətə başlaması münasibətilə təbriklərini çatdırdı. Prezident İlham Əliyev beşinci çağırış Milli Məclisin deputatlarına səmərəli fəaliyyətlərinə görə təşəkkür etdi. Azərbaycan Prezidenti altıncı çağırış Milli Məclisin də uğurla fəaliyyət göstərəcəyinə, ölkəmizdə aparılan genişmiqyaslı və çoxşaxəli islahatlara, onların dərinləşməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi. 1300-dən çox namizədin mübarizə apardığı seçkilərin uğurla keçdiyini deyən Prezident İlham Əliyev bütövlükdə seçkilərin xalqımızın iradəsini tam ifadə etdiyini söylədi.

> *"Seçkilər Azərbaycanda aparılan siyasi kursa alternativ olmadığını bir daha sübut etdi"*

Prezident İlham Əliyev onu da vurğuladı ki, seçkilərdə bütün siyasi qüvvələr iştirak ediblər. Nəticədə altıncı çağırış Milli Məclis çoxpartiyalı məclis kimi formalaşır. Seçkilərdə Yeni Azərbaycan Partiyasının yerlərin əksəriyyətini əldə etdiyini deyən dövlətimizin başçısı vurğuladı ki, siyasi sistemin möhkəmləndirilməsi, siyasi münasibətləri sağlam zəmində inkişaf etdirmək üçün bütün partiyaların nümayəndələri Milli Məclisin rəhbərliyi və komitələrinin rəhbərliyində təmsil olunmalıdırlar.

Deputatların qarşısında duran vəzifələrdən danışan Prezident İlham Əliyev mövcud qanunların təkmilləşdirilməsinin və qəbul olunmuş qanunların icrasına nəzarətin əhəmiyyətinə toxundu. Dövlətimizin başçısı vurğuladı ki, qanunlar qəbul olunarkən iqtisadi inkişafın dərinləşdirilməsi, milli dəyərlərin qorunması, informasiya təhlükəsizliyi, sosial siyasət və gənclər siyasəti nəzərə alınmalıdır. Prezident İlham Əliyev qeyd etdi ki, deputatlar seçicilərlə daim təmasda olmalı, onların problemləri ilə maraqlanmalıdırlar. Dövlətimizin başçısı Milli Məclis üzvlərinin beynəlxalq qurumlarda Azərbaycan həqiqətlərini daha geniş şəkildə təbliğ etmələrinin vacibliyindən danışdı, Dağlıq Qarabağ məsələsində ermənilərin tarixi saxtalaşdırmaq cəhdlərinin qarşısının alınmasında fəallığı artırmağın zəruriliyindən söhbət açdı. Prezident İlham Əliyev dedi ki, seçkilər Azərbaycanda aparılan siyasi kursa alternativ olmadığını bir daha sübut etdi. Bu gün ölkəmizdə xalq sabitlik və təhlükəsizlik şəraitində yaşayır. Son 16 ildə Azərbaycanda əldə edilən iqtisadi inkişafın dünyada təkrarı yoxdur:

"Altıncı çağırış Milli Məclis bu gün öz işinə başlayır. Bu münasibətlə bütün deputatları ürəkdən təbrik edirəm, onlara uğurlar arzulayıram.

İlk növbədə, beşinci çağırış Milli Məclisin deputatlarına göstərdikləri fəaliyyətə görə təşəkkürümü bildirirəm. Beşinci çağırış Milli Məclis, onun deputatları, rəhbərliyi ölkəmizin uğurlu inkişafı istiqamətində böyük rol oynamışlar, parlament tərəfindən qəbul edilmiş qanunlar bizim uğurlu inkişafımızın hüquqi bazasını gücləndirmişdir. Əminəm ki, altıncı çağırış Milli Məclis də uğurla fəaliyyət göstərəcək və beləliklə, ölkəmizdə aparılan genişmiqyaslı və çoxşaxəli islahatlara, onların dərinləşməsi işinə öz töhfəsini verəcəkdir.

Fevralın 9-da keçirilmiş parlament seçkiləri ölkəmizin həyatında önəmli hadisə idi. Hər bir seçkilər önəmli hadisədir, bu seçkilərin xüsusiyyəti ondan ibarət idi ki, o, növbədənkənar seçkilər idi. Bu seçkilərin fevral ayında keçirilməsinin əsas səbəbi islahatları dərinləşdirmək, vaxt itirmədən yeni tərkibdə Milli Məclisin işini təşkil etməkdir. Hesab edirəm ki, seçki prosesi uğurla keçdi və bu dəfə seçkilərə çox böyük maraq göstərilmişdir. Bunun əyani sübutu odur ki, bu seçkilərdə 1300-dən çox namizəd iştirak etmişdir. Əlbəttə ki, bu namizədlər fəal iş apararaq öz fikirlərini, baxışlarını, ideyalarını seçicilərə azad şəkildə çatdıra bilmişlər. Bütün namizədlər üçün bərabər şərait yaradılmışdır, heç bir ayrı-seçkiliyə yol verilməmişdir. 1300-dən çox namizədin olması, əslində, seçkilərə onlar tərəfindən göstərilən etimadın təzahürüdür. Hesab edirəm ki, bütövlükdə seçki prosesi həm uğurla keçmişdir, həm də seçkilərin nəticələri Azərbaycan xalqının iradəsini əks etdirmişdir.

Ardı Səh. 3

İlham Əliyev: "Bütövlükdə seçkilər xalqımızın iradəsini tam ifadə etdi"

Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası keçirilib

Əvvəli Səh. 2

Əsas məsələ ondan ibarətdir ki, Azərbaycan xalqı bu seçkilərdən məmnun qalmışdır və seçkilərdən sonra müşahidə olunan hadisələr bunu bir daha göstərir.

Biz seçkiləri müşahidə etmək üçün bir çox beynəlxalq təşkilatları, müşahidəçiləri dəvət etmişdik və onların mütləq əksəriyyəti seçkilərin həm hazırlıq dövrünü, həm kampaniya dövrünü və həm də seçkilər gününü çox müsbət qiymətləndirmişdir. Demək olar ki, müşahidəçilərin mütləq əksəriyyəti seçkiləri demokratiyanın inkişafında növbəti uğurlu addım kimi qiymətləndirmişlər və bəyan etmişlər ki, Azərbaycan xalqı azad şəkildə öz seçki hüququndan istifadə edib və seçkilərin nəticələri real mənzərəni əks etdirir. Bunu bəyan edən beynəlxalq müşahidəçilər, əlbəttə ki, reallığı əks etdirir. Eyni zamanda, Azərbaycanda seçki prosesinə həmişə ikili standartlar prizmasından yanaşan və qeyri-obyektivliklə fərqlənən ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosu və onun təsiri altında olan bəzi qurumlar bu dəfə də hansısa qüsurları qabardıb, onları böyük hadisə kimi təqdim etməyə çalışmışdılar. Heç bir seçki qüsursuz olmur. Bu dəfə də qüsurlar olub və 4 dairənin nəticələrinin ləğv edilməsi onu göstərir ki, bu qüsurların olmaması üçün Azərbaycan özü maraqlıdır. Seçkidən sonrakı proseslər bir daha onu göstərir ki, bizim əsas niyyətimiz ondan ibarət idi ki, Azərbaycan xalqı öz seçki hüququndan azad şəkildə istifadə etsin, bəyəndiyi namizədə səs versin, beləliklə, öz fikrini və öz siyasi iradəsini ifadə etsin. Bütövlükdə biz buna nail olmuşuq və seçkilərdən sonra artıq müşahidə olunan mənzərə onu göstərir ki, Azərbaycan xalqı seçkilərin nəticələri ilə razılaşıb. Bizim üçün əsas məsələ bundan ibarətdir.

> ***"Bu gün ölkəmizdə xalq sabitlik və təhlükəsizlik şəraitində yaşayır. Son 16 ildə Azərbaycanda əldə edilən iqtisadi inkişafın dünyada təkrarı yoxdur"***

Eyni zamanda, hesab edirəm ki, Avropa İttifaqı seçkilərin keçirilməsi ilə əlaqədar çox obyektiv bəyanat vermişdir. Bəyan etmişdir ki, Avropa İttifaqı yeni seçilmiş deputatlarla, Azərbaycan parlamenti ilə işləməyə hazırdır. Bu, əslində, seçkilərin tanınması deməkdir. O ki qaldı, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun rəyinə, bu dəfə görünür ki, ciddi hadisə baş vermədiyi üçün onlar da məcbur olub öz məruzəsini müəyyən dərəcədə balanslaşdırılmış formada təqdim etsinlər. Halbuki, biz çoxdan bilirik ki, onların məruzələri seçkilərdən əvvəl yazılır və harada yazılır, onu da biz bilirik. Bir də ki, ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun son dövrdəki bəyanatları və bəzi ölkələrdə seçkilərə verilən qiymət bir daha onların nə dərəcədə qeyri-obyektiv, qərəzli olmasını göstərir və nümayiş etdirir ki, bu qurum siyasi sifariş icra edir. Son misal 2018-ci ildə Ermənistanda keçirilmiş parlament seçkiləri idi. Bildiyiniz kimi, bu seçkilər ovaxtkı hakim faşist respublikaçılar partiyası tərəfindən tam saxtalaşdırılmışdı, - mən bu partiyanı faşist adlandırıram, təkcə onların ideologiyasına, onların mahiyyətinə görə yox, eyni zamanda, onların embleminə baxmaq kifayətdir ki, hər kəs görsün, faşist Almaniyasının emblemi ilə onların emblemi fərqlənmir, - və Respublikaçılar partiyasının özünə 50 faizdən çox səs yazdırdığı bu saxtalaşdırılmış seçkilərə ATƏT Demokratik Təsisatlar və İnsan Haqları Bürosu müsbət rəy vermişdi. Bir sözlə, bu saxtakarlığa şərik çıxmışdır və ondan sonrakı hadisələr hər kəs üçün bəllidir. Ondan sonra bu qanunsuz və korrupsioner rejim devrildi, onları guya Ermənistan parlamentində təmsil edən deputatlar təslim oldu, əllərini qaldırdılar, boyunlarını bükdülər və kənara çəkildilər. Yeni parlament seçkiləri elan edildi və yeni parlament seçkilərində respublikaçıların faşist partiyası heç parlamentə girə bilmədi. Yəni, bu, nəyi göstərir? Onu göstərir ki, 2 və ya 3 ay ondan əvvəl saxtalaşdırılmış seçkilərin nəticələri göz qabağındadır və bu nəticələrə, bu saxtakarlığa ATƏT Demokratik Təsisatlar və İnsan haqları Bürosu öz müsbət rəyini vermişdi. Yəni, sadəcə olaraq, bunu misal kimi gətirməklə bir daha demək istəyirəm ki, bu qurumun rəyi bizim üçün tamamilə əhəmiyyətsizdir. Çünki bu rəy yenə də siyasi sifariş əsasında yazılır və bu, elə bil ki, bəzi dövlətlərin aparıcı dairələrinin bir təzyiq üsuludur.

> ***"Hələ hesab edirik ki, bəli, orada hansısa icra başçısı bir ağadır, xandır, istədiyini edə bilər, insanları qul kimi işlədə bilər, insanlar da buna dözməlidirlər. Deyirəm ki, verin bu məlumatı, göndərin məktubları. İndi Prezident Administrasiyasında tam başqa bir vəziyyət var"***

Bir məsələni - müşahidəçiləri də qeyd etmək istərdim. Bir məsələ də məni, sözün düzü, təəccübləndirdi. Deyə bilərəm ki, biz müşahidəçi qismində dəvət etdiyimiz bütün təşkilatları bu seçkilərdə görmüşük. Ancaq Avropa Parlamentinə biz dəvət göndərməmişik, çünki birincisi, biz bu qurumun üzvü deyilik, ikincisi, buna lüzum görmürük, təxminən eyni səbəblərə görə. Çünki Azərbaycana qarşı ədalətsiz qətnamələrin qəbul olunması sahəsində Avropa Parlamenti birincilik əldə edib. Onların da qətnamələri bizim üçün tamamilə əhəmiyyətsizdir. Ancaq bildirməliyəm ki, belə meyillər bizə qarşı bu gün də müşahidə olunur.

Beləliklə, biz bu təşkilatı dəvət etmirik. Onlar isə bəyanat yayırlar ki, bu seçkiləri müşahidə etməkdən imtina edirlər. Bu, ən yumşaq sözlə desəm, siyasi saxtakarlıqdır. Çünki biz sizi dəvət etmirik, biz sizi burada görmək istəmirik, biz sizə inanmırıq. Belə olan halda gəlib deyəsən ki, biz imtina edirik, bu, gülməlidir və təəccüblüdür.

Bir sözlə, seçkilər bir daha bizim siyasi xəttimizin xalq tərəfindən yüksək qiymətə layiq olduğunu göstərdi. Hesab edirəm ki, seçkilərdən sonrakı proseslər müsbət istiqamətdə inkişaf edəcək. Altıncı çağırış Milli Məclis çoxpartiyalı məclisdir. Bu, çox müsbət əlamətdir. Hesab edirəm ki, siyasi sistemin təkmilləşdirilməsi işində Milli Məclisin çox böyük rolu olacaqdır və olmalıdır. Bütün siyasi qüvvələr seçkilərdə iştirak etmişlər. Sadəcə olaraq, özünü müxalifət adlandıran marginal qruplaşma seçkiləri sanki boykot etmişdir. Bu da gülməlidir. Çünki Azərbaycan xalqı bu rüsvayçı qurumu çoxdan boykot edib və 27 ildir ki, onlar tarixin zibilxanasındadırlar. Belə olan halda boykot elan etmək həm gülməlidir, həm də təəccüblüdür.

Beləliklə, bütün siyasi qüvvələrin iştirak etdiyi seçkilər nəticəsində çoxpartiyalı parlament formalaşıb və hesab edirəm ki, bu, demokratiyanın inkişafında önəmli addımdır. Bildiyiniz kimi, Yeni Azərbaycan Partiyası yerlərin əksəriyyətini qazanıb. Təbii ki, Yeni Azərbaycan Partiyasının Milli Məclisdə sözü kifayət qədər qiymətlidir və təsirlidir. Yeni Azərbaycan Partiyasını təmsil edən deputatlar bu gün səhər mənim tapşırığımla yığışmışlar və önəmli qərarlar qəbul etmişlər. Mənim tövsiyəm o olmuşdur ki, partiyaların nümayəndələri altıncı çağırış Milli Məclisin rəhbərliyində və komitələrin rəhbərliyində təmsil olunsunlar. Bu günə qədər belə bir hal olmamışdır. Keçən çağırış Milli Məclisin komitələrinin rəhbərliyində, parlamentin rəhbərliyində müxalifət nümayəndələri təmsil olunmurdu. Ancaq mən hesab edirəm ki, Azərbaycanda siyasi sistemi möhkəmləndirmək, siyasi münasibətləri sağlam zəmində gücləndirmək üçün buna ehtiyac var. Əlbəttə, hesab edirəm ki, Yeni Azərbaycan Partiyası ümumi maraqlar naminə bu sahədə də çox düzgün addım atır.

Deyə bilərəm ki, həm altıncı çağırış Milli Məclis bu sahədə, əlbəttə, öz sözünü deyəcək, eyni zamanda, Prezident Administrasiyasının nümayəndələri son vaxtlar demək olar ki, bütün siyasi qüvvələrin rəhbərləri ilə görüşlər keçirir.

Ardı Səh. 4

İlham Əliyev: "Bütövlükdə seçkilər xalqımızın iradəsini tam ifadə etdi"

Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası keçirilib

Əvvəli Səh. 3

Mənə bu görüşlər haqqında müntəzəm olaraq məruzə edilir. Bütövlükdə ilkin rəy müsbətdir. Hesab edirəm ki, indiki genişmiqyaslı islahatlar dövründə siyasi islahatlar mütləq aparılmalıdır. Siyasi islahatlar partiyalararası geniş dialoq aparılmadan həyata keçirilə bilməz. Bir partiya - hakim partiya təkbaşına siyasi dialoq apara bilməz. Çünki dialoq üçün tərəf-müqabillər lazımdır və ilkin təəssürat müsbətdir. Bu təşəbbüs heç bir şərt qoymadan həyata keçirilir. Ancaq yenə də marginallaşmış və bütün dayaqlarını tam itirmiş dərnək tipli qruplaşma bu görüşdən imtina etdi. İmtina edib, indi özü bilər. Hər halda, uduzan biz olmayacağıq. Azərbaycanın yeni siyasi konfiqurasiyası formalaşır. Hesab edirəm ki, qanunvericilik sahəsində də siyasi sistemin təkmilləşdirilməsi üçün Milli Məclis tərəfindən lazımi addımlar atılacaq və Azərbaycanda çoxpartiyalı sistem daha da möhkəm əsaslar üzərində qurulacaq. Hazırda siyasi partiyanı yaratmaq üçün heç bir ciddi meyar tələb olunmur. Hesab edirəm ki, bu praktikaya son qoyulmalıdır. Əgər biz doğrudan da istəyirik ki, Azərbaycanda çoxpartiyalı sistem inkişaf etsin, - biz bunu istəyirik və iqtidar partiyası kimi bunu təqdim edirik, - onda, əlbəttə, siyasi partiyaların fəaliyyəti üçün lazım olan bütün alətlər spektri mövcud olmalıdır. Bu, hesab edirəm ki, Milli Məclisin gündəliyində duran məsələlərdən biri olacaqdır.

Bir sözlə, həm seçkilər, həm də seçkilərdən sonra keçən dövr, iqtidar tərəfindən siyasi partiyalara yönəlmiş addımlar - bütün bunlar bizim mövcud siyasətimizin yeni mərhələsini əks etdirir. Bu, bizim islahatçı kursumuzu əks etdirir. Bildiyiniz kimi, islahatların yeni mərhələsi 2018-ci ilin prezident seçkilərindən sonra başlamışdır. Bu islahatları mən andiçmə mərasimində, bax, bu salonda bəyan etmişdim. Biz onları ardıcıl olaraq icra edirik və bu, həyatda öz əksini tapır. Bir də onu göstərir ki, həmişə olduğu kimi, bizim sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur."

Dövlət başçısı qeyd edib ki, islahatlar həm konseptual xarakter, həm də struktur xarakteri daşıyır. Kadr islahatları aparılır. Son müddət ərzində Prezident Administrasiyası demək olar ki, tam yeni tərkibdə formalaşmışdır və yeni şöbələr yaradılmışdır:

"Bu şöbələrin yaradılması, eyni zamanda, dediyim sözləri bir daha təsdiqləyir, bizim niyyətimizi təsdiqləyir. Nazirlər Kabineti yeni tərkibdə formalaşmışdır. Hazırda Nazirlər Kabineti daha operativ və çevik fəaliyyət göstərir. Nazirliklərdə kadr islahatları aparılmışdır, yerli icra orqanlarında bu islahatlar aparılır və aparılacaq. Bəzi yerli icra orqanlarında müşahidə olunan biabırçı mənzərə bütün xalqımızı hiddətləndirir. Bundan sonra da təmizləmə işləri aparılacaqdır, həm mərkəzi, həm də yerli icra orqanlarında, bütün dövlət qurumlarında. Mən demişəm, bir daha demək istəyirəm ki, əgər kimsə dövlət işində işləmək istəyirsə, onun niyyəti də, əməlləri də təmiz olmalıdır. Əgər hansısa bir adam özündə bu xüsusiyyətləri görmürsə, o, dövlət işindən getsin, sabah bədbəxt olmasın.

Ona görə islahatların dərinləşməsi, əlbəttə ki, parlamentdən yan keçə bilməzdi. Hesab edirəm ki, yeni tərkibdə formalaşmış Milli Məclis islahatlara yeni təkan verəcəkdir. Deputatlar qarşısında böyük vəzifələr durur, ilk növbədə, qanunvericilik sahəsində. Çünki parlamentin əsas işi qanunvericilikdir. Mənim tövsiyəm ondan ibarətdir ki, nəinki kəmiyyətə, daha çox keyfiyyətə fikir verilsin. Çünki mövcud olan qanunların təkmilləşdirilməsinə baxmaq, onları təftiş etmək lazımdır. İcra strukturlarına mənim tərəfimdən göstəriş verilmişdir ki, qəbul edilmiş qanunların icrası nə yerdədir. Biz bir çox gözəl qanunlar qəbul edirik, eyni zamanda, Prezident tərəfindən bir çox önəmli sərəncamlar imzalanır, ancaq onların icrasına nəzarət lazımi səviyyədə deyil. Ona görə Prezident Administrasiyasında xüsusi şöbə yaradıldı. Hesab edirəm ki, Milli Məclis, deputatlar da bu işlərlə məşğul olmalıdırlar. Baxın, görün, qəbul olunmuş qanunlar icra edilir, yoxsa edilmir, bu qanunları pozurlar, yoxsa pozmurlar. Əgər belə hallar aşkarlanarsa, onda əlbəttə ki, ciddi cəza tədbirləri görülməlidir.

Ona görə hesab edirəm ki, bütövlükdə, - əlbəttə, bu, vaxt aparacaq, amma hər halda bunu etmək lazımdır, - biz qanunvericilik bazamızı təftiş etməliyik. Əgər lazım olarsa, onları qarşımızda duran mövcud hədəflərlə uzlaşdırmalıyıq. Çünki həyat yerində durmur, yeni çağırışlar, yeni problemlər üzə çıxır. Gözlənilmədən elə hadisələr baş verir ki, bütün dünya çaş-baş qalır. Ona görə bu qanunlar doqma deyil, onlara, əlbəttə ki, baxmaq lazımdır. Yeni qəbul ediləcək qanunların əsas mahiyyəti islahatları dərinləşdirməkdir. Ona görə qeyd etdiyim kimi, siyasi sistemin formalaşdırılması və gücləndirilməsi üçün qanunvericilik təşəbbüsləri, əlbəttə ki, lazım olacaq, iqtisadi islahatlarımızın dərinləşməsi işinə töhfə verən qanunlar qəbul edilməlidir. Hesab edirəm ki, bizim milli dəyərlərimizlə, milli ənənəvi dəyərlərimizin qorunması ilə bağlı qanunvericilik bazası daha da geniş olmalıdır.

> ***"Qanunlar qəbul olunarkən iqtisadi inkişafın dərinləşdirilməsi, milli dəyərlərin qorunması, informasiya təhlükəsizliyi, sosial siyasət və gənclər siyasəti nəzərə alınmalıdır"***

İnformasiya mühafizəsi ilə bağlı. Çünki biz informasiya dövründə yaşayırıq və saxta xəbərlər, yəni, "feyk nyus" adlandırılan xəbərlər əfsuslar olsun ki, geniş vüsət alır və istənilən yalan xəbər çox böyük fəsadlara gətirib çıxara bilər. Biz Azərbaycan olaraq bu şər-böhtan kampaniyaları ilə çoxdan üzüzəyik. Bunun əsas səbəbi bizim müstəqil siyasətimizdir, heç kimin qarşısında baş əyməməyimizdir. Amma bunun fəsadları odur ki, bizə qarşı informasiya kampaniyası aparılır - qara piyar kampaniyası, yalan, böhtan, uydurma, iftira üzərində qurulmuş kampaniya. Ona görə informasiya mühafizəsi ilə, informasiya təhlükəsizliyi ilə əlaqədar mütləq qanunvericilikdə yeni yanaşmalar, yeni fikirlər olmalıdır.

Sosial siyasətlə bağlı. Azərbaycan sosial dövlətdir və bizim atdığımız bütün addımlar bunu təsdiqləyir. Təkcə keçən il mənim təşəbbüsümlə reallaşan sosialyönümlü paket 4,2 milyon insanı əhatə edir. Minimum əməkhaqlarının, minimum pensiyaların müntəzəm olaraq qaldırılması, əlbəttə ki, böyük iqtisadi mənbə tələb edir və bunu da biz yaradırıq. Ölkəmizdə şəffaflıqla bağlı gedən proseslər, kölgə iqtisadiyyatına qarşı olan proseslər bizim iqtisadi imkanlarımızı gücləndirir, vergi bazasını genişləndirir, kölgə iqtisadiyyatına qarşı çox ciddi zərbə olur. Ona görə qanunvericilikdə bütün bu məsələlər, əlbəttə ki, diqqət mərkəzində olmalıdır.

Gənclər siyasəti ilə bağlı. Azərbaycan əhalisinin mütləq əksəriyyəti gənclərdir və Azərbaycanda demoqrafik mənzərə çox müsbətdir. Ona görə gənclərin asudə vaxtlarının səmərəli təşkili, onların fəal işə cəlb edilməsi, - misal üçün, könüllülər hərəkatı çərçivəsində, - vətənpərvərlik ruhunda tərbiyə edilməsi istiqamətində əlbəttə ki, qanunvericilikdə addımlar atılmalıdır. Gənclər milli ruhda tərbiyə almalıdırlar, xarici təsir altına düşməməlidirlər, xüsusilə indiki internet dövründə ki, istənilən yalan tezliklə yayılır və sonra elə bil həqiqət kimi təqdim olunur. Bu da bizə qarşı aparılan qeyri-təmiz siyasətin bir hissəsidir. Çünki sirr deyil ki, Azərbaycanda hazırda ictimai-siyasi vəziyyət çox sabitdir. Ölkəmizdə ictimai-siyasi sabitliyə təhlükə törədə biləcək heç bir amil mövcud deyil. Ona görə bu amilləri anti-Azərbaycan qüvvələr ölkəmizin xaricində yaratmaq istəyirlər. Burada özünü müxalifət adlandıran və tamamilə rüsvayçı halda guya fəaliyyətini davam etdirən qruplaşmadan artıq onların əli üzülüb, onlara heç inam da qalmayıb. Ona görə yeni beşinci kolonun yaradılması istiqamətində iş aparılır. Çünki indiki beşinci kolon öz sahiblərinin etimadını doğrultmur. Azərbaycanda çevriliş edə bilməyib, dırnaqarası inqilab edə bilməyib, xalqın dəstəyini qazana bilməyib, sadəcə, onlara müntəzəm olaraq verilən pulları mənimsəyib və beləliklə, öz havadarlarını pis günə qoyubdur. Odur ki, yeni beşinci kolon axtarışı gedir. Mən bütün siyasi qüvvələri bu məsələ ilə bağlı çox ciddi xəbərdar etmək istəyirəm ki, bu yol xəyanət yoludur, bu yola gedən xalq, dövlət qarşısında xəyanət edəcək. Ona görə bizim bütün daxili problemlərimiz Azərbaycanın daxilində həll olunmalıdır. Biz, öz daxili problemlərimizi, siyasi çəkişmələri xaricə ixrac etməməliyik. Birincisi, bunun heç bir əhəmiyyəti yoxdur. Çünki bu gün dünyada elə bir qüvvə yoxdur ki, hansısa qərarı bizə aşılasın, yaxud da bizə nəyisə diktə edə bilsin. Belə qüvvə yoxdur və nə qədər ki, mən prezidentəm, belə qüvvə olmayacaqdır. Ona görə bu, tamamilə mənasızdır. Azərbaycanı hansısa təzyiq altına salmaq cəhdləri, yaxud da ki, sanksiyalarla hədələmək - bütün bunların heç bir əhəmiyyəti yoxdur. Bu, iqtidara qarşı deyil, bu, dövlətə qarşı edilən cinayətdir və bunu heç kim unutmasın.

Son illər ərzində biz müxtəlif təzyiqlərlə, müxtəlif kampaniyalarla üzləşmişik, ancaq öz yolumuzdan dönməmişik. Ölkəmizin, xalqımızın əmin-amanlığı, təhlükəsizlik, sabitlik, xalqımızın rifahı, müstəqil siyasətimiz bizim üçün hər şeydən üstündür. Biz beynəlxalq təşkilatlarla əməkdaşlıq edirik, bəzi təşkilatların üzvüyük, o təşkilatlara könüllü şəkildə daxil olmuşuq, könüllü şəkildə də çıxa bilərik - əgər nə vaxtsa bu təşkilatlarda bizi nəsə qane etməsə, yaxud da bizə qarşı olan qərəzli münasibət o həddə çatsın ki, artıq bizim hövsələmiz tükənsin. Ona görə hesab edirəm ki, bütün siyasi qurumların nümayəndələri bu sahədə də çox diqqətli olmalıdırlar.

O ki qaldı, gənc nəslə, yenə də deyirəm, bizim gənc nəslimiz vətənpərvərdir, Vətənə bağlıdır, milli köklərə bağlıdır, elə də olmalıdır. Bizim gənclər, mən bunu dəfələrlə demişəm, bir daha demək istəyirəm ki, milli ruhda tərbiyə almalıdırlar. Eyni zamanda, gənclərin mənəvi və fiziki hazırlığı üçün əlavə tədbirlər həyata keçirilməlidir. Hesab edirəm ki, Milli Məclis və onun müvafiq komitələri bu işlə məşğul olub konkret təkliflər irəli sürəcəklər.

Əlbəttə, deputatlara tövsiyəm odur ki, onlar seçildikləri dairələrdə fəal olsunlar, seçicilərlə daim təmasda olsunlar. İndi sirr deyil, əvvəlki dövrlərdə bəzi deputatlar seçicilərdən bir qədər, yaxud da ki, tamamilə uzaqlaşmışdılar. Heç öz dairələrinə baş çəkmirdilər, problemlərlə maraqlanmırdılar. Öz şəxsi problemlərini ortaya qoyurdular. Buna da son qoyulmalıdır. Əvvəllər belə hallar kifayət qədər çox olubdur. Öz qohumlarını vəzifələrə yerləşdirmək, hansısa torpaq sahələri əldə etmək, hansısa biznesə dəstək göstərmək və sair və ilaxır. Mən dərinə getmək istəmirəm. Ona görə yeni tərkibdə formalaşan Milli Məclis mənəvi cəhətdən qüsursuz olmalıdır. Çünki bizim əsas islahatlarımızın mahiyyəti də budur. Əgər bizim vətəndaşlar yaxından baxsalar görərlər ki, siyasi sahədə, struktur islahatları, kadr islahatları, vəzifələrə gətirilən kadrlar təmizdirlər. Yəni, onların arxasında heç bir, necə deyərlər, mənfi iz yoxdur. Milli Məclis də, onun deputatları da bu meyarlara cavab verməlidirlər. Sabah siz xalq qarşısında cavab verməli olacaqsınız. Ona görə siz seçildiyiniz dairələrin problemləri ilə daim maraqlanmalısınız, seçicilərlə görüşməlisiniz, dairələrdə olmalısınız. Eyni zamanda, mövcud olan problemləri də üzə çıxarmalısınız. Bunları icra orqanlarının qarşısına çıxarmalısınız, mərkəzi icra orqanlarının diqqətinə çatdırmalısınız. Hesab edirəm ki, yeni tərkibdə formalaşan Milli Məclis bu sahədə də uğurlu fəaliyyət göstərəcək.

Beynəlxalq fəaliyyətlə bağlı demək istərdim ki, bizim deputatlar bir neçə beynəlxalq təşkilatda təmsil olunurlar. Əlbəttə ki, orada əvvəlki illərdə də fəallıq kifayət qədər yüksək idi. İndiki dövrdə daha da yüksək olmalıdır. Çünki biz Azərbaycan həqiqətlərini çatdırmalıyıq. Xüsusilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı tarixi həqiqətləri çatdırmalıyıq. Tarixi ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq da bizim mövqeyimizi dəstəkləyir. Ona görə bizim arqumentlərə qarşı Ermənistan tərəfi heç bir ciddi arqument qoya bilmir, ancaq yalan, böhtan, tarixi saxtakarlıq və mifologiya. Bu, əslində, onların xislətidir. Onlar geniş şəbəkə çərçivəsində bəzi siyasətçiləri satın alırlar. Bu da heç kimə sirr deyil. Belə olan halda onların tarixi saxtakarlığına elə bil ki, bəraət qazandırılır. Ona görə bizim deputatlar bütün beynəlxalq təşkilatlarda tarixi həqiqətləri ortaya qoymalıdırlar. Mən Münxendə Kürəkçay sülh müqaviləsi haqqında deyəndən sonra bilirəm ki, Ermənistanda indi bu müqaviləni əzbərləyirlər. Orada açıq-aydın göstərilir ki, bu müqaviləni kim bağlayıb, nə vaxt bağlayıb və erməni xalqı haqqında orada ümumiyyətlə, söhbət belə getmir.

Ardı Səh. 5

İlham Əliyev: "Bütövlükdə seçkilər xalqımızın iradəsini tam ifadə etdi"

Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası keçirilib

Əvvəli Səh. 4

Bir tərəfdən Rusiya generalı Sisianov, bir tərəfdən İbrahim xan, özü də rusca yazılmışdır İbrahim xan "Karabaxski Şuşinski". Bax, budur real tarix. XX əsrin əvvəllərində Rus imperiyası tərəfindən dərc edilmiş xəritələrə baxmaq kifayətdir görəsən ki, orada indiki Ermənistan ərazisində toponimlərin mütləq əksəriyyəti Azərbaycan mənşəlidir. Bunu demək lazımdır, o xəritələri gətirmək lazımdır. İşğal edilmiş indiki torpaqlarımızın xəritələrini gətirmək lazımdır. Bütün beynəlxalq təşkilatları, orada fəaliyyət göstərən nümayəndələri tanış etmək lazımdır. Eyni zamanda, müsəlman ölkələrinin parlamentlərinin nümayəndələri ilə görüşlər əsnasında mütləq ermənilər tərəfindən dağıdılmış məscidlərimizin şəkilləri göstərilməlidir. Mən bunu edirəm. Bir çox müsəlman ölkələrinin liderlərinə bu şəkilləri göstərirəm. Əgər bunu geniş siyasi elita görsə, onda əlbəttə ki, o ölkələrin rəhbərləri üçün Ermənistan rəhbərləri ilə ağız-ağıza öpüşmək ayıb olar. Biz bunu deməliyik, deməliyik ki, təkcə bizə qarşı yox, bütün müsəlman aləminə qarşı bu faşist rejim müharibə elan edib, bizim məscidlərimiz, tarixi abidələrimiz dağıdılıb. Amma biz bu məlumatı kifayət qədər çatdıra bilmirik. Ona görə bu, xüsusi bir istiqamət olmalıdır."

Dövlət başçısı qeyd edib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı olan bütün təşkilatlarda biz fəal olmalıyıq, hücum diplomatiyası aparmalıyıq, çünki haqq-ədalət bizim tərəfimizdədir:

"Xocalı soyqırımı haqqında. Artıq 10-dan çox ölkənin parlamenti bunu rəsmən tanıyıb. Bu proses davam etdirilməlidir və deputatlar bu prosesdə fəal olmalıdırlar. Çünki bu qərarların qəbul edilməsində dövlət qurumları böyük dərəcədə əsas rol oynayırlar. Ona görə parlament fəal olmalıdır. Bu, artıq beynəlxalq münasibətlər çərçivəsində qəbul edilmiş faktdır. Ermənistan tərəfinin çox yersiz, yalançı, cılız cəhdləri Münxen Təhlükəsizlik Konfransında özünü göstərdi və bir daha onları ifşa etdi. Çünki onların bütün tarixi saxtakarlıqdır. Onlar tarixi Azərbaycan torpağında dövlət qurublar, əfsuslar olsun ki, bizim Azərbaycan Xalq Cümhuriyyətinin köməyi ilə. İndi bütün tarixi adlarımızı dəyişdirib bizim tariximizi, abidələrimizi özününküləşdirmək istəyirlər. Ona görə deputatlar daim bu məsələni qaldırmalıdırlar.

Bütövlükdə beynəlxalq təşkilatlar çərçivəsində bizim fəaliyyətimiz daha məqsədyönlü olmalıdır. Orada bizi təmsil edən deputatlar fəal olmalıdırlar, turist kimi getməməlidirlər, sonra hesabat verməlidirlər ki, nə iş görmüsən, kiminlə görüşmüsən, hansı məsələni qaldırmısan. Yoxsa bəzi hallarda bu, turist səfərlərini xatırladır. Getdik, görüşdük, oturduq, danışdıq, yedik, qayıtdıq. Özü də bəzi səfərlər, ümumiyyətlə, qəbuledilməzdir. Mən bu gün bu haqda çox danışmaq istəmirəm, amma bilirəm nə baş verir, hansı hadisələr baş verir. Ona görə biz beynəlxalq fəaliyyətimizin səmərəliliyini artırmalıyıq. O təşkilatlarda ki bizə qarşı əsassız yanaşma var, bizə qarşı ittihamlar irəli sürülür, biz orada mübariz olmalıyıq. Yəni, onların qarşısında yaxşı olmaq yox, dövlət, xalq qarşısında yaxşı olmaq lazımdır. Hansısa məsələni kəskinləşdirmək istəmirəm bəhanəsi ilə kənara çəkilmək yox, əksinə, öz sözünü demək lazımdır. Qərəzli yanaşmanı ifşa etmək lazımdır. Necə ki, mən daim bunu edirəm və kifayət qədər faktlar var. Bunu demək üçün siyasətçi olmaq lazım deyil. Adi vətəndaş bunu görür televiziyada. Baxın, bizə demokratiyadan dərs vermək istəyənlər hansı cinayətlər törədirlər. Avropanın dırnaqarası demokratiya beşiyi sayılan ölkələrdə xalqın gözü qarşısında, dünyanın gözü qarşısında dinc nümayişçiləri vururlar, əzirlər, gözlərini çıxarırlar, öldürürlər, həbs edirlər. Jurnalistləri əsassız ittihamlarla həbs edirlər, çürüdürlər onları. Göz qabağındadır, dinc nümayişçiləri itlərlə, atlarla dağıdırlar. Bir ölkədə yox, iki ölkədə yox, demək olar ki, bu, indi bizi tənqid etmək istəyən məkanda kütləvi hal alıbdır. Müsəlman miqrantlara qarşı baxın, necə münasibət göstərilir. Onları XXI əsrdə itlərlə əzirlər, qəfəsə salırlar. Sona isə qəfəsə yemək parçaları atırlar, heyvan kimi. Budurmu münasibət?!

İndi də bütün vasitələrdən istifadə edib onları əzmək fikrindədirlər. Bəs o miqrantlar haradan yarandı? Nə üçün onlar yarandı? Nəyə görə öz ölkələrini tərk etdilər? Kim onların ölkələrinə basqın etdi? Kim o ölkələri məhv etdi? Kim sabitliyi pozdu? Kim milyonlarla qaçqının yaranmasına səbəbkar oldu? Ona görə kim bunu edibsə, qoy, onun acısını da çəksin. Nə üçün Türkiyə, bizim qardaş ölkəmiz 4 milyon qaçqını qəbul etməlidir, yedirməlidir, içirməlidir, milyardlarla pul xərcləməlidir? Bunları Türkiyəmi didərgin salıb? Yox. Onları didərgin salanlar gəlib onlara sahib çıxsınlar.

> ***"Nə üçün Türkiyə, bizim qardaş ölkəmiz 4 milyon qaçqını qəbul etməlidir, yedirməlidir, içirməlidir, milyardlarla pul xərcləməlidir? Bunları Türkiyəmi didərgin salıb? Yox. Onları didərgin salanlar gəlib onlara sahib çıxsınlar"***

Bütün bunları demək lazımdır. Mən bu gün bu kürsüdən bunu deyirəm, açıq, heç kimdən çəkinmədən. Çünki mən haqlıyam və həqiqətə qarşı heç kim heç nə deyə bilməz. Əlbəttə, bax, görərsiniz, bu sözlərdən bir neçə gündən sonra yenə çirkin məqalələr çıxacaq, yenə hansısa bir qondarma təşkilat nəsə bəyanat verəcək ki, Azərbaycanda o, pisdir, bu, pisdir. Eybi yoxdur, qoy desinlər. Amma biz bu həqiqətləri deməsək, sabah bu, bizim başımızda sınacaq. Ona görə bunu deməliyik və siz də deməlisiniz. Mən bütün deputatlara deyirəm, heç bir sövdələşməyə getmək olmaz. Beynəlxalq təşkilatlarla işləmək lazımdır, biz də işləyirik, ancaq bizim maraqlarımız var və kifayət qədər arqumentlərimiz var. Ona görə mən sizi bu mübarizəyə çağırıram - həm Avropa Şurasında, həm ATƏT Parlament Assambleyasında, həm də bütün başqa təşkilatlarda. Beləliklə, hesab edirəm ki, bu istiqamətdə atılacaq addımlar bizim ölkəmizin mövqeyini daha da gücləndirəcək.

Əlbəttə ki, parlamentin iqtisadi sahədə görülən işlərlə bağlı rolu artmalıdır. Mən hesab edirəm ki, hökumət üzvləri də daha sıx təmasda olmalıdırlar, parlamentdə daim ünsiyyətdə olmalıdırlar, onlara suallar verilməlidir, onlar gördükləri işlər haqqında da məruzə etməlidirlər, çıxış etməlidirlər və bunu da biz sistemə salmalıyıq. Çünki bu, həm hökumət üzvlərinin məsuliyyətini artıracaq, həm parlamentin rolu artacaq, - mən istəyirəm ki, Azərbaycanda parlamentin rolu və təsir imkanları artsın, - həm də ümumi işimizə müsbət təsir göstərəcək. Çünki məsuliyyət ən vacib məsələlərdən biridir. Məsuliyyət və nəzarət. Harada ki, bu, yoxdur, heç bir iş getməyəcək. Əksinə, çox mənfi mənzərə ilə üzləşə bilərik. Ona görə bu da bir nəzarət mexanizmi olmalıdır.

Mən indi vətəndaşlara ictimai nəzarət haqqında daim müraciət edirəm ki, bu proses yavaş gedir, hələ öyrəşməmişik. Hələ hesab edirik ki, bəli, orada hansısa icra başçısı bir ağadır, xandır, istədiyini edə bilər, insanları qul kimi işlədə bilər, insanlar da buna dözməlidirlər. Deyirəm ki, verin bu məlumatı, göndərin məktubları. İndi Prezident Administrasiyasında tam başqa bir vəziyyət var. O məktubları əvvəllər bəziləri gizlədirdilər. Əvvəllər kimdən ki, şikayət edirdilər, ona göndərirdilər. O da sonra həmin şikayətçini əzirdi orada. İndi buna son qoyulur. Düzdür, vaxt lazımdır, amma bu, artıq meyildir. Ona görə camaat da ictimai nəzarət işində daha fəal olmalıdır. Bir çox məsələlər haqqında məlumatı əvvəllər mən mətbuatdan alırdım, mənə çatmırdı, gizlədirdilər, malalayırdılar və demək olar ki, bu, böyük çətinliklər yaradırdı. Ona görə hesab edirəm ki, hökumət üzvləri ilə daim təmas olmalıdır, Prezident Administrasiyasında parlamentlə iş üzrə xüsusi şöbə yaradılıb. Bu, əlbəttə, bir daha onu göstərir ki, biz parlamentin işinə böyük əhəmiyyət veririk."

Dövlət başçısı daha sonra qeyd edib ki, bu seçkilər bir daha göstərdi ki, bu gün Azərbaycan iqtidarı tərəfindən aparılan siyasi kursa alternativ yoxdur. Bunun da çox sadə səbəbləri var:

"Son illər ərzində ölkəmizdə müşahidə olunan inkişaf, əlbəttə ki, insanları inandırır. Azərbaycan xalqı əmin-amanlıq, sabitlik, təhlükəsizlik şəraitində yaşayır. Artıq 27 ilə yaxındır ki, biz sabitlik şəraitində yaşayırıq, görün, bizim ətrafımızda hansı proseslər baş vermişdir - müharibələr, qaçqınların axını, çevrilişlər, vətəndaş qarşıdurması, böhranlar. Ölkələr parçalandı, demək olar ki, bəzi ölkələrin coğrafi sərhədləri real vəziyyəti əks etdirmir, yəni, bu ölkələr, sadəcə olaraq, xəritələrdə öz suverenliyini və ərazi bütövlüyünü saxlayırlar. Əslində, çoxdan itiriblər, çoxdan bölünüblər tayfalara, təriqətlərə, müxtəlif bölgələrə. Bizim qonşuluğumuzda nə qədər acınacaqlı proseslər, inqilablar gedib. Hansı inqilab kimə xeyir gətirib? Ancaq ziyan, ancaq problemlər, ancaq qarşıdurma və bu qarşıdurmalar davam edir. İndi postsovet məkanına və Azərbaycanın vəziyyətinə baxın. Mən indi müqayisə edə bilmərəm, amma siz edə bilərsiniz. Deputatlar Prezidentin deyə bilmədiyi sözü deməlidir və əminəm ki, belə də olacaq.

Son 16 il ərzində iqtisadi sahədə əldə edilmiş uğurların dünyada bərabəri yoxdur. Əgər varsa, desinlər, götürsünlər statistikaya baxsınlar, hansı ölkə 16 il ərzində öz iqtisadiyyatını 3,4 dəfə artıra bilib. Ondan sonra yoxsulluq, 50 faizə yaxın idi, indi 4,8 faizdir və daha da aşağı düşəcək. Çünki maaşlar, pensiyalar artır və artırılacaq, müavinətlər də həmçinin. Xarici borc ümumi daxili məhsulun 17 faizinə bərabərdir. Bu, çox aşağı göstəricidir. İnkişaf etmiş bəzi ölkələrdə bu, 100 faizdən çoxdur. Amma ondan daha önəmli məsələ odur ki, valyuta ehtiyatlarımız xarici borcumuzdan altı dəfə çoxdur. Yəni, istəsək, xarici borcumuzu bir ay ərzində sıfırlaya bilərik. Xarici borcu ödəmək üçün gərək bəzi ölkələrin valyuta ehtiyatları indikindən 50 dəfə artıq olsun. Bu gün biz müstəqil ölkə kimi yaşayırıq, müstəqil siyasət aparırıq, heç kimin işinə qarışmırıq, heç kimə də imkan vermirik ki, bizim işimizə qarışsın. Əminəm ki, biz bundan sonra da bu müstəqillik və inkişaf yolu ilə gedəcəyik. Əminəm ki, Azərbaycan parlamenti bu işdə fəal olacaq."

İclasın sədri Ziyad Səmədzadə gündəliyi təqdim etdi. Gündəlik təsdiqləndikdən sonra Milli Məclis Sədrinin seçilməsi məsələsi müzakirə olundu.

Qeyd edildi ki, Yeni Azərbaycan Partiyası tərəfindən deputat Sahibə Qafarovanın Milli Məclisin sədri kimi namizədliyi irəli sürülüb. Sahibə Qafarova Yeni Azərbaycan Partiyasının Sədrinə və partiya üzvlərinə təşəkkürünü bildirdi.

Səsvermə oldu və 116 səs lehinə olmaqla, Sahibə Qafarova Milli Məclisin sədri seçildi. Milli Məclis Sədrinin birinci müavini vəzifəsinə deputat Əli Hüseynli seçildi. Deputatlar Adil Əliyev və Fəzail İbrahimli Milli Məclis Sədrinin müavinləri seçildilər.

Milli Məclisin Sədri Sahibə Qafarova İntizam Komissiyasının və Hesablayıcı Komissiyanın tərkibinə namizədlərin adlarını elan etdi. Milli Məclisin Daxili Nizamnaməsinə əsasən namizədlər bütövlükdə səsə qoyularaq təsdiq edildilər. Milli Məclisin Sədri Sahibə Qafarova komitə sədrliyinə namizədlikləri irəli sürülən deputatların adlarını oxudu. Məsələ səsə qoyularaq qəbul edildi.

Deputat Əli Hüseynli Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin, Ziyafət Əsgərov Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin, Tahir Mirkişili İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin, Sadiq Qurbanov Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin, Tahir Rzayev Aqrar siyasət komitəsinin, Musa Quliyev Əmək və sosial siyasət komitəsinin, Siyavuş Novruzov Regional məsələlər komitəsinin, Bəxtiyar Əliyev Elm və təhsil komitəsinin, Qənirə Paşayeva Mədəniyyət komitəsinin, Zahid Oruc İnsan hüquqları komitəsinin, Səməd Seyidov Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin, Əhliman Əmiraslanov Səhiyyə komitəsinin, Hicran Hüseynova Ailə, qadın və uşaq məsələləri komitəsinin, Fəzail İbrahimli İctimai birliklər və dini qurumlar komitəsinin, Adil Əliyev Gənclər və idman komitəsinin sədrləri təsdiq edildilər.

İclasda komitə sədrlərinin müavinləri də təsdiq olundu. Bununla da altıncı çağırış Milli Məclisin birinci iclası başa çatdı.

Birinci vitse-prezident Mehriban Əliyeva Beynəlxalq Qadınlar Günü münasibətilə xanımları təbrik edib

Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində 8 mart - Beynəlxalq Qadınlar Günü münasibətilə paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "Əziz qadınlar! Beynəlxalq Qadınlar Günü münasibətilə sizi səmimi-qəlbdən təbrik edirəm! Sizə möhkəm cansağlığı, gözəl əhval-ruhiyyə, sevinc dolu işıqlı və xoşbəxt anlar, bütün işlərinizdə uğurlar arzulayıram! Qoy, doğma və yaxınlarınızın sevgisi sizin tükənməz enerji mənbəyiniz olsun! Qoy, sizin zərifliyiniz, mehribanlığınız və müdrikliyiniz ailə ocağınızın və səadətinizin etibarlı mühafizəçisi olsun! Tanrı sizi və doğmalarınızı qorusun! Sevgilərlə, Mehriban".

ABŞ-ın Aydaho Ştat Senatında Azərbaycanın təqdimatı keçirilib

ABŞ-ın Aydaho Ştat Senatının plenar iclasında Azərbaycanın təqdimatı keçirilib. Təqdimatda Azərbaycanın Los-Ancelesdəki baş konsulu Nəsimi Ağayev iştirak edib. Qeyd edək ki, Aydaho Ştat Senatının tərkibi əksəriyyəti respublikaçı olmaqla, 35 senatordan ibarətdir.

Ölkəmizin Los-Ancelesdəki Baş Konsulluğundan AZƏRTAC-a bildirilib ki, iclasda çıxış edən Aydaho Ştat Senatının sədri Brent Hill senatorlara Azərbaycan haqda məlumat verib. O, ölkəmizin coğrafi mövqeyi, iqlimi, zəngin təbii müxtəlifliyi haqqında danışıb. Azərbaycanda neft sənayesinin inkişafından danışan senator dünyada ilk neft quyusunun 1848-ci ildə məhz Azərbaycanda qazıldığını, ölkəmizin qədim neft sənayesinə malik olduğunu diqqətə çatdırıb. Senator Hill, həmçinin Azərbaycanda iqtisadiyyatın şaxələndirildiyini qeyd edib. Daha sonra B.Hill baş konsul N.Ağayevi senatorlara təqdim edib.

Bundan başqa, N.Ağayev həmin gün Aydaho Ştat Senatının nüfuzlu Nəqliyyat Komitəsinin iclasında Azərbaycana dair geniş təqdimatla çıxış edib. Baş konsul Azərbaycanın coğrafi mövqeyi, qədim tarixi, zəngin mədəni irsi, eləcə də müstəqil dövlət kimi davamlı inkişafı haqqında ətraflı məlumat verib.

Azərbaycan-ABŞ münasibətləri haqqında məlumat verən N.Ağayev Azərbaycanın ABŞ-ın regiondakı ən böyük ticari tərəfdaşı olduğunu deyib. O, Azərbaycan tərəfindən həyata keçirilən və strateji önəm daşıyan trans-regional enerji və nəqliyyat layihələrindən bəhs edib.

N.Ağayev daha sonra Azərbaycanın qədim tolerantlıq və multikulturalizm ənənələrindən danışaraq, ölkəmizdə müsəlman, yəhudi, xristian və digər dinlərin nümayəndələrinin əsrlər boyu bir-biriləri ilə mehriban şəraitdə yaşadıqlarını və azad şəkildə öz dini ibadətlərini həyata keçirdiklərini diqqətə çatdırıb. Səfər müddətində baş konsul N.Ağayev Aydaho Nümayəndələr Palatasının demokratlar fraksiyasının dəvəti ilə həmin fraksiyanın iclasında da çıxış edib.

Misir qəzeti: **Azərbaycan Milli Məclisinə qadın sədrin seçilməsi gender bərabərliyinin göstəricisidir**

Misirin nüfuzlu "Al-Diplomasy" qəzetində dərc olunan yazıda Azərbaycan Milli Məclisinə qadın sədrin seçilməsi gender bərabərliyinin göstəricisi kimi qiymətləndirilib. AZƏRTAC xəbər verir ki, baş redaktor Əşrəf Əbu Aarafini müəllifi olduğu "Qafarovanın parlament sədri seçilməsi 8 Mart sonrası gender bərabərliyinin rəmzi oldu" sərlövhəli məqalədə Sahibə Qafarovanın Azərbaycan Milli Məclisinin sədri seçilməsi haqqında məlumat verilib.

Məqalədə qeyd olunub ki, Milli Məclisin iclasında iştirak edən 116 deputat yekdillikle yeni spikerin namizədliyini dəstəkləyib.

Bu il Gəncədə yeni lokomotiv deposu istifadəyə veriləcək

"Azərbaycan Dəmir Yolları" QSC-nin sifarişi və Fransa Maliyyə Agentliyinin dəstəyi ilə şəhərin Zülfü Hacıyev küçəsi, 1 ünvanında yeni lokomotiv deposunun inşası davam etdirilir. Gəncə Şəhər İcra Hakimiyyətindən AZƏRTAC-ın bölgə müxbirinə bildirilib ki, artıq işlərin 50 faizindən çoxu görülüb. Yeni lokomotiv deposunun 2020-ci ilin sonunadək istifadəyə verilməsi nəzərdə tutulur.

Nazirlər Kabineti: makroiqtisadi sabitlik qorunacaq

Nazirlər Kabinetində neft bazarındakı vəziyyət, onun Azərbaycana təsirləri və qabaqlayıcı tədbirlər müzakirə olunub

Martın 10-da Azərbaycan Respublikasının Nazirlər Kabinetində Baş Nazir Əli Əsədovun sədrliyi ilə müşavirədə qlobal enerji bazarında vəziyyət və onun iqtisadiyyata təsirinə dair məsələlər müzakirə edilib. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, müşavirədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov, İqtisadiyyat naziri Mikayıl Cabbarov, Maliyyə naziri Samir Şərifov, Mərkəzi Bankın sədri Elman Rüstəmov, Dövlət Neft Fondunun İcraçı direktoru İsrafil Məmmədov və Baş Nazirin köməkçisi Fəxri İsmayılov iştirak ediblər.

Dünyada koronavirus infeksiyasının yayılmasının qlobal iqtisadiyyata mənfi təsirlərinin artdığı şəraitdə əsas neft ixracatçıları arasında hasilatın həcmi barədə fikir ayrılığının yaranması dünya bazarında neftin qiymətinin kəskin ucuzlaşmasına səbəb olub.

Azərbaycan hökuməti dünya iqtisadiyyatında gedən prosesləri diqqət mərkəzində saxlayaraq baş verə biləcək neqativ iqtisadi tendensiyaların ölkə iqtisadiyyatına mənfi təsirlərinin neytrallaşdırılması üçün preventiv tədbirlər planlarına malikdir. Belə ki, neftin qiymətinin kəskin ucuzlaşmasının tədiyə balansına təsirlərinin proqnoz ssenariləri hazırlanıb. Bu ssenarilərə uyğun olaraq, zərurət yarandığı hallarda müvafiq sabitləşdirici tədbirlər paketi həyata keçiriləcək.

Qeyd edək ki, dünyada baş verən neqativ iqtisadi meyillər fonunda belə Azərbaycan iqtisadiyyatı dayanıqlılıq nümayiş etdirir, iqtisadiyyatımız inkişaf edir, ölkənin maliyyə imkanları genişlənir. Bu gün ölkə iqtisadiyyatı 2014-cü ildən başlanan qlobal maliyyə-iqtisadi böhranı dövründən daha dayanıqlıdır. Əvvəlki illərdə olduğu kimi, 2020-ci ildə də müsbət inkişaf dinamikası davam edir. Belə ki, yanvar-fevral aylarında qeyri-neft ÜDM-i 6,7 faiz, ÜDM isə 2,8 faiz artıb.

Neft bazarında və qlobal iqtisadiyyatda baş verən hadisələrə qarşı ölkə iqtisadiyyatının kifayət qədər yüksək maliyyə immuniteti və təhlükəsizlik "yastığı" mövcuddur. 2019-cu ilin yekunlarına görə, strateji valyuta ehtiyatlarımız ÜDM-in 100 faizini ötür, valyuta ehtiyatları xarici dövlət borcunu 6 dəfə üstələyir.

Valyuta bazarında sabitliyin və manatın məzənnəsinin qorunması məqsədilə zəruri tədbirlər görülməsi üçün bütün imkanlar vardır. Həm monetar, həm də iqtisadi siyasətin digər istiqamətləri üzrə nəzərdə tutulan tədbirlər inflyasiyanın hədəflənən səviyyədə saxlanılmasını təmin edəcək.

Eyni zamanda, dövlət büdcəsinin maliyyə dayanıqlılığının daha da gücləndirilməsi üçün əlavə tədbirlər görüləcək, xərclərin optimallaşdırılması və səmərəli istifadəsi üzərində ciddi nəzarət davam etdiriləcək.

Vurğulanmalıdır ki, 2020-ci il üçün qəbul edilmiş dövlət büdcəsinin xərcləri, o cümlədən bütün sosial layihə və öhdəliklər nəzərdə tutulan qrafik üzrə tam həcmdə və vaxtında icra olunur, heç bir sosial layihənin təxirə salınması nəzərdə tutulmur. Hökumət qlobal iqtisadiyyatda baş verən son hadisələrin ölkədə iqtisadi artıma və məşğulluğa mənfi təsirlərinin aradan qaldırılması üçün müvafiq təsir alətlərinə malikdir və zəruri olduğu halda bu alətlərdən çevik istifadə olunacaq. Bununla yanaşı, istehlak bazarına ciddi nəzarət edilir və vəziyyətdən sui-istifadə etməklə baş verə biləcək süni qiymət artımına və əsassız qıtlığa qarşı sərt tədbirlər görüləcək.

der Freitag
Die Wochenzeitung
Politik Wirtschaft Kultur Alltag Community Produkte der Woche
Argumentationen Armenien vs. Aserbaidschan
Konflikt um Bergkarabach In Bezug auf den Bergkarabachkonflikt gibt es auf beiden Seiten zwei ziemlich kontroverse Vorstellungen, die man ausdiskutieren sollte.
Asif Masimov | Community

Almaniyanın "Der Freitag" qəzetində Ermənistan-Azərbaycan münaqişəsi barədə məqalə dərc edilib

Almaniyanın "Der Freitag" qəzetində azərbaycanlı doktorant Asif Məsimovun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə məqaləsi dərc edilib. AZƏRTAC xəbər verir ki, tarixi faktlara əsaslanan məqalədə erməni tərəfinin argumentlərinin əsassızlığı qeyd edilir. Azərbaycan tərəfinin mövqeyinin isə tarixi nöqteyi-nəzərdən və beynəlxalq hüquq baxımından əsaslı olduğu diqqətə çatdırılır.

“Azərbaycan haqqında qərəzli mövqedən çıxış edənlərin əsas məqsədi təzyiq göstərməkdir”

Yeni Azərbaycan Partiyasının icra katibinin müavini, MM-in deputatı Siyavuş Novruzovun “Yeni Müsavat” qəzetinə müsahibəsində müzakirə olunan mövzuların aktuallığını nəzərə alaraq oxucularımızın diqqətinə təqdim edirik.

- Siyavuş bəy, Konstitusiya Məhkəməsi martın 5-də seçkilərə yekun vurdu. Öncəliklə, bu qərarı necə dəyərləndirərdiniz?

- Öncəliklə onu qeyd edim ki, Azərbaycanda parlament seçkilərinin keçirilməsi üçün tam münbit bir şərait yaradılmışdı. Şəffaf, ədalətli, demokratik seçki keçirildi. Həm ictimai-siyasi vəziyyət, həm də ictimai-siyasi sabitlik mövcud idi. Hər bir namizəd üçün bərabər şərait yaradılmışdı. Bunun nəticəsi olaraq, Azərbaycanda 20-dən artıq qeydiyyatdan keçmiş siyasi partiya və xeyli sayda ölkə vətəndaşı öz hüquqlarından istifadə edərək, seçki prosesinə qoşuldu. Təbii ki, seçkidə müəyyən olunmuş 125 yer var. Bu sayda şəxs seçilməli idi. Bütün dünyada belədir ki, seçilməyənlərdən narazı olanlar da olur, razı qalanlar da. Bu, aydın məsələdir. Kimin şikayəti var idisə, bunu etmək üçün hər cür şərait namizədlərə yaradılmışdı. Bunun nəticəsində 300-dən artıq məntəqə ləğv olundu, 4 dairənin nəticələri ləğv edildi. Tam şəkildə araşdırmalar aparıldı. Şikayət edən tərəfin iştirakı ilə bu araşdırma getdi. MSK 4 dairəni ləğv etdi, digərlərini təsdiq etmək üçün Konstitusiya Məhkəməsinə göndərdi. Bu məhkəmə də öz qərarı ilə nəticələri təsdiqlədi. Yenə də kiminsə şikayəti qalıbsa, hüquqi müstəvidə bunu davam etdirə bilər. Azərbaycan hüquqi bir dövlətdir. Burada qanunun aliliyi hamı üçün bərabərdir. Hər şey faktlar, qanun çərçivəsində olmalıdır. Söz söhbətlərə ehtiyac yoxdur. Kiminsə səsini telefona yazdırdılar, buna da hüquqi qiymət verildi.

- 4 dairə üzrə təkrar seçkilərin nə zaman keçiriləcəyini düşünürsüz?

- Adətən təkrar seçkilər iki aydan sonra baş tutur. İndi prezident nə zaman münasib biləcəksə, seçki gününü təyin edəcək. Vətəndaşlar da yenə azad şəkildə iştirak edəcəklər.

- Qeyd edirsiniz ki, seçkilər demokratik şəkildə keçirildi. Bəs MSK-nin qarşısında günlərlə keçirilən aksiya nə idi?

- Etiraz edən ilk növbədə özünə sual verməlidir ki, mən niyə seçilməmişəm. Mən Azərbaycanda seçki praktikası üzrə həm Amerikada, həm də Avropanın bir sıra ölkələrində müxalifət partiyalarının bir çoxunun nümayəndələri ilə birlikdə 1995-ci ildən bu tərəfə kurslar keçmişəm. Seçki prosesini çox gözəl bilirəm, nəzəri və praktiki hissələrdən ibarətdir. Nəzəri qanunvericiliklə nəzərdə tutulur, praktiki seçki prosesidir. Seçkiyə qatılmaq üçün hər bir namizəd düşünməlidir ki, hansı dairədən qatılım və niyə? Bu sual qarşıya qoyulmalıdır. Bəlkə yaşadığın yerdə birinci elə qonşuların əleyhinədir. Bunun tədqiqatını aparmısan ya yox? Bu kənddə doğulmusan deyə, düşünə bilməz ki, camaat gəlib mütləq sənə səs verəcək. Bu düşüncə tərzindən insanlar uzaq olmalıdır. Əgər qarşısına məqsəd qoyubsa ki, namizədliyini irəli sürüb seçilsin, ilk növbədə tədqiqat aparıb dəqiqləşdirməlidir ki, hansı dairədən səs ala bilər. Dairə var ki, orada gənc istəyirlər, yaşlı istəyən dairə də var, yaxud dairə var ki, orada qadının deputat olmasını istəyirlər. Bütün bunların hamısı tədqiqatın nəticəsidir. Seçkiyə bir il qalmış gərək o tədqiqatı aparasan ki, haradan namizədliyini verəcəyini müəyyən edəsən. Seçki elan olundu, görüm bu dairədə nə var, nə yox, düşüncəsi ilə prosesə qatılmaq olmaz. Bu xaricilərin də gülüş obyektinə çevrilir. MSK-nın qarşısında etiraz edənlər məhz bu xarakterə sahib insanlar idilər. Biriki dənə yazı yazır, adını qoyur bloger. Bu yazını kim oxuyub oxumayıb özü bilər, yaxud dostları ona səs verib-verməyiblər, bunu da özü bilər. Bəlkə birinin dostları heç o dairənin ərazisində yaşamır? Sən prezident seçkilərində iştirak etmirsən ki. Dairə üzrə gəlib səs verirlər. Bu baxımdan onların praktiki təcrübələri çox az idi.

Digər əsas şərt ondan ibarətdir ki, seçkiyə komanda ilə getmək lazımdır. Onların bir çoxunu gördüm ki, hətta iki nəfər səlahiyyətli nümayəndə təyin etməyə adamları yox idi. Özü DSK-ya aparıb sənədlərini təqdim edir. Halbuki namizədin səlahiyyətli nümayəndəsi bunu etməlidir. Doğrudur, namizədin özünün bunu etməsinə qadağa yoxdur. Amma demək, bu iki nəfər tapa bilmir ki, sənədləşmə işini aparsın. 450 imzanı toplamaq üçün azı 10 nəfər tələb olunur. Amma namizədin özü qapı-qapı düşüb imza toplayır. Deməli, komandası yoxdur. Belə olan təqdirdə hansı qələbədən danışa bilər? İstənilən partiyanın nümayəndəsi gəlsin, üzbəüz debatda onları başa salım. Azından 35 məntəqədir və hərəsində bir müşahidəçi təyin etməlisən - əgər seçkiyə nəzarət etmək istəyirsənsə. Bir müşahidəçi düşüb oradan-ora, buradan-bura əlində telefon çəkə-çəkə gedir. Müşahidəçi seçki məntəqəsi açılanda gəlir, bağlananda gedir. Hansı detala əl atsalar, bunlarda qələbə üçün bir işartı belə yox idi. Bu baxımdan o adamlar xalqın onlara nə üçün səs vermədiklərini düşünməlidirlər. Vətəndaş gəlib deyir ki, sənə axı niyə səs verməliyəm, əsaslandır.

- Müxalif namizədlərin bir kəsimi “Xalq parlamenti” yaradır...

- Belə şeylər çox olub. Son 30 ildə buna az şahidlik etməmişik. Vaxtilə SİDSUH, müvəqqəti, alternativ hökumət, alternativ parlament və s. yaradıblar. Bunlar bir aylıq işlərdir.

- 236 nəfər də seçkilərin ləğvi tələbi ilə sənəd hazırlayıb, imza atıblar.

- Bu, normal haldır. 2500-dən çox insan namizəd olmaq üçün müraciət etdi. Təxminən 1800-ə yaxın insan qeydiyyatdan keçdi. Onlarda da bəziləri başqasının xeyrinə geri çəkildilər, təxminən 1400-ə yaxın insan seçki günündə iştirak etdi. Hər dairə üzrə təxmini 12-13 nəfər mübarizə apardı. Onlardan da biri seçilməli idi. Bunların sırasında narazıların olması gözlənilən idi. Amerikada konqresmenlər, senatorlar iki müraciət hazırlayırlar. Biri seçicilərə təşəkkür edir, digəri seçkilərin saxtalaşdırıldığını deyirlər.

- Parlamentin ilk iclasının təxminən nə vaxt keçiriləcəyi gözlənilir?

- Konstitusiya Məhkəməsi təsdiq edəndən son bir həftə ərzində iclas keçirilməlidir. Burada prosedur qaydalar var. Hazır olan kimi parlament öz işinə başlayacaq.

- Siyavuş Novruzov Milli Məclisin spikerliyinə, yaxud vitse-spikerliyinə iddialıdırmı?

- Mən partiya nümayəndəsiyəm. Partiya sədri haranı tapşırsa, orada olacam. Bizdə partiya intizamı var. Sədr nə göstəriş, tapşırıq verirsə, can-başla yerinə yetirməyə hazırıq.

- Şəxsiniz olmasa da, namizədləriniz varmı?

- Bu seçkilərdə qalib gələn tərəf Yeni Azərbaycan Partiyasıdır. Buna uyğun olaraq, parlament rəhbərliyinin böyük əksəriyyəti partiyamızdan formalaşacaq. Bu da partiya sədrimizin tövsiyələri əsasında olacaq.

- YAP-da bu məsələlər müzakirə olunubmu?

- Bu, artıq bizim daxili məsələmizdir.

- “Freedom House” günlər öncə Azərbaycanı “Azad olmayan ölkələr” sırasına saldı, Türkmənistan, Tacikistanla bir yerə...

- Buna gözlə baxmaq lazımdır. Azərbaycanla adını çəkdiyiniz dövlətlər tərəzinin eyni gözündədir? Birinci saxtakarlıq elə oradan başlayır. Bu və ya digər beynəlxalq təşkilatlar 30 ilə yaxındır ki, Azərbaycan haqqında qərəzli mövqedən çıxış edirlər. Burada da əsas məqsəd təzyiq göstərməkdir. Ayrı-ayrı firmaların burada güzəştli şəkildə iş almaları və digər məsələlərdə təzyiq metodundan istifadə edirlər. Bunu edən təşkilatların idarə heyətlərində ermənilər, yaxud erməni mənşəli şəxslər təmsil olunurlar. Onlara Azərbaycanın bu cür inkişafı sərf etmir. Yaxınlarda cənab prezident İtaliyaya səfər etdi və 28 sənəd imzalandı. Bu və ya digər bu kimi göstəricilər ölkəmizə bariz nümunədir. Onlar nə yazırlarsa, yazsınlar. Elə hesab edin ki, Mübariz Əhmədoğlu yazır ki, Amerikada demokratiya yoxdur. Bu, eyni şeydir.

- Bugünlərdə Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin ölkədəki siyasi partiyalarla görüşləri baş tutmaqdadır. Bu iqtidar-müxalifət dialoquna gedən yolun başlanğıcıdır?

- Prezident Administrasiyasında yeni struktur formalaşıb. Siyasi partiyalarla işlə Ədalət Vəliyev məşğuldur. Siyasi partiyaların bir-bir rəylərini, fikirlərini alır, arzularını, istəklərini öyrənir. Bunlar toplum şəklində hazırlanır. Elə sahə var ki, orada parlamentin qərarına ehtiyac olacaq. Elə sahə olacaq ki, cənab prezidentin sərəncamına böyük ehtiyac duyulur. Yəni hər birinin müxtəlif təklif və istəkləri var. Burada sivil qaydada münasibətlərin qurulmasından söhbət gedir.

Müxalifət düşmənçilik demək deyil, alternativ təklif, fikir deməkdir. Bütün bunlar danışıqlar əsasında ortalıqda olur. Bunlar olmadan bir-birinə mətbuat və ya digər vasitələrlə müraciət etmək mümkün deyil axı. Təbii ki, burada o biri partiyaları monopoliyaya alıb, özlərinin böyük olduğunu göstərməyə çalışanlar var. Əslində onlar da dərnəkdir. Partiya seçkilərdə iştirak edib, alternativ təkliflər verir, kadr bazası formalaşdırır. Bunların işi orada-burada etiraz aksiyaları, piketlər keçirməkdir. 30 ildir eyni işlə məşğulsunuz. Bu məsələləri qurtarın.

- Seçki prosesi dövründə DTX tərəfindən icra başçıları səviyyəsində həbslər oldu. Bu hansı proseslərin başlanğıcı idi?

- Cənab prezident belə məmurlarla bağlı konkret fikirlərini bildirdi ki, xalqın malına toxunan, mənimsəyən, vətəndaşları incidən, onların haqq səsinə qulaq asmayan, öz vəzifə borcunu yerinə yetirməyən şəxslər kimliyindən asılı olmayaraq cəzalandırılacaq. Burada heç bir güzəşt ola bilməz. Hamı qanun qarşısında bərabərdir.

- Neftçalanın icra başçısı 31 yaşlı Mirhəsən Seyidov təyin olundu ki, bu da bir sıra müzakirələr doğurdu. Əsas da yaşına görə...

- Heç kəs doğulanda icra başçısı doğulmur. İllərlə o vəzifə üçün yetişir. Bu gün gənclərə yol açılır. Onlara özlərini göstərmək üçün şərait yaradılır. Bəzi ölkələr var ki, qəfil gəncləşmə həyata keçirilir. Bu da çox böyük kataklizmlərə gətirib çıxarırdı. Ölkəmiz də bu təkamül yolu ilə gedir. Strukturlarda gəncləşmə prosesi getməkdədir. Bu davamlı olacaq.yap.org.az

Əmanətlərin tam sığortalanması müddəti bu il dekabrın 4-dək uzadılır



Əmanətlərin tam sığortalanması müddətinin bu il dekabrın 4-dək uzadılması nəzərdə tutulur. Xezerxeber.az-ın məlumatına görə, bu, Prezident İlham Əliyevin imzası ilə Milli Məclisə daxil olmuş “Əmanətlərin tam sığortalanması haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” qanun layihəsində əksini tapıb. Qeyd edək ki, “Əmanətlərin tam sığortalanması haqqında” qanun 2016-cı il martın 4-dən qüvvəyə minib və bu il martın 4-də qüvvədə olma müddəti başa çatıb.

EL ESPANOL: Bakı, Azərbaycanda ənənələr və müasirlik

“EL ESPANOL” portalında paytaxtımızın mədəniyyətinə və tarixi irsinə həsr olunmuş “Bakı, Azərbaycanda ənənələr və müasirlik” sərlövhəli məqalə dərc olunub. AZƏRTAC xəbər verir ki, məqalədə Bakının Azərbaycanın elmi-texniki və sənaye mərkəzi olduğu bildirilir. Tarixi yaddaşın müasirliklə daima təmasda olduğu bu şəhərin bənzərsiz gözəlliyini seyr etməkdən ötrü buraya səyahət etmək arzusunda olanların sayı gün-gündən çoxalır. Bakının tarixi keçmişi, coğrafi mövqeyi barədə məlumat verən məqalənin müəllifləri İçərişəhərin Şirvanşahlar Sarayı və Qız qalası ilə birlikdə UNESCO-nun Ümumdünya irs obyektlərinin siyahısına daxil olmasını vurğulayırlar.

“EL ESPANOL” ispaniyalı turistləri dəb, şoppinq və musiqi həvəskarları üçün ideal istirahət məkanı ola biləcək Bakıya səyahətə dəvət edir. “Kristal-holl”da və Heydər Əliyev mərkəzində il ərzində dünya ulduzlarının konsertləri, Bakı Caz mərkəzində isə müxtəlif caz üslublarında şoular təşkil olunur.

Neftin qiyməti: Azərbaycan bütün sınaqlardan uğurla çıxıb

Hər bir ölkədə inkişafın davamlılığını təmin edən başlıca amillərdən biri strateji hədəflərin düzgün müəyyənləşdirilməsidir. Son illər dünyada geosiyasi risklərin yüksəlməsi və iqtisadi problemlərin dərinləşməsi, dünya enerji bazarındakı qeyri-sabitlik və tərəfdaş ölkələrdə milli valyutaların dəyərdən düşməsi fonunda Azərbaycan iqtisadiyyatının dayanıqlıq nümayiş etdirməsi, bir daha göstərdi ki, iqtisadi prioritetlərin əvvəlcədən müəyyən olunması və bu hədəflərin məqsədyönlü şəkildə reallaşdırılması çox önəmlidir.

Bu baxımdan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çevik və praqmatik iqtisadi siyasəti və vaxtında görülmüş qabaqlayıcı tədbirlər dünya iqtisadiyyatındakı mənfi proseslərin ölkəmizə təsirlərinin minimuma endirilməsinə imkan yaratmışdır. Azərbaycandakı siyasi sabitlik, güclü iqtisadi potensial, iqtisadiyyatın diversifikasiyası, biznes mühitinin sistemli olaraq yaxşılaşdırılması və sahibkarlığın inkişafı istiqamətində görülmüş tədbirlər ölkə iqtisadiyyatının xarici təsirlərə qarşı dayanıqlılığını şərtləndirən başlıca amillərdir.

Azərbaycanın davamlı inkişafının və iqtisadi dayanıqlılığının təmin olunmasında ölkəmizdə yaradılmış siyasi sabitliklə yanaşı, iqtisadiyyatın şaxələndirilməsi və bu siyasətin prioritet istiqamətlərini özündə əks etdirən dövlət proqramları müstəsna əhəmiyyət kəsb edir. Görülmüş işlərin nəticəsidir ki, 2019-cu ildə Azərbaycanda ÜDM-in artımı son beş ildə ilk dəfə 2 faizi ötüb, qeyri-neft ÜDM-in istehsalı isə 3,5 faiz, yəni dünya üzrə iqtisadi artım tempindən daha yuxarı olub.

Onu da qeyd etmək lazımdır ki, dünya iqtisadiyyatında baş verən proseslərə qarşı ölkə iqtisadiyyatının dayanıqlılığının daha da möhkəmləndirilməsi üçün Prezident İlham Əliyevin islahatlar siyasəti çərçivəsində çevik iqtisadi idarəetmənin təşkili, biznes mühitinin yaxşılaşdırılması, investisiyaların təşviqi və qeyri-neft məhsullarının ixracının stimullaşdırılması sahəsində əhəmiyyətli qərarlar qəbul edilmişdir.

Neft bazarında son durum

Məlum olduğu kimi, bu günlərdə neft bazarında qiymətlərdə şok yaşanır. Brent markalı neftin bir barrelinin qiyməti son gündə 14 dollar ucuzlaşaraq, 31,27 dollara düşüb. Martın 7-də hərracda brent markalı neftin bir barreli 45,54 dollara satılıb. Martın 7-də hərrac başa çatdıqda Şimal Dənizi neftinin bir barreli 45,54 dollar, martın 9-da neft sövdələşmələrində fyuçerslər 26,5% düşərək, bir barrel üçün 33,3 dollar təşkil edib. Amerikanın WTI nefti ilə bağlı fyuçers sövdələşmələri 27,5% ucuzlaşaraq, 29,8 dollardan satılır.

Neftin qiyməti daim aşağı qala bilməz

Azərbaycan Respublikası İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı sözügedən məsələ ilə bağlı bildirib ki, neftin qiymətinin, hər barrelə görə 1 ABŞ dolları dəyişməsi, cari əməliyyatlar hesabımıza illik, təxminən, 250 milyon ABŞ dolları məbləğində təsir edir. İlin əvvəlində 68 dollar olan Brent neftinin qiyməti bu gün 31 dollardır. Yəni qiymət 37 dollar və ya 50% düşüb. Əgər 1 dollar 250 milyon dollar məbləğində təsir edirsə, 37 dolların təsiri 9 milyard dollardan çox edir. Təbii ki, bu məbləğdə təsrin baş verməsi üçün qiymətin il ərzində 30 dollar səviyyəsində qalması lazımdır.

Prezident İlham Əliyev:

“Neftin qiymətinin aşağı düşməsi Azərbaycan iqtisadiyyatına ciddi təsir etməyib”

Vüsal Qasımlı: “Ölkəmiz təkcə neft gəlirlərindən asılı deyil”

V.Qasımlı, həmçinin, bildirib ki, ölkəmiz təkcə neft gəlirlərindən asılı deyil: “Bir də Azərbaycan iqtisadiyyatının hazırkı mənzərəsi, bir daha göstərir ki, ölkəmiz təkcə neft gəlirlərindən asılı deyil. Hazırda ölkə iqtisadiyyatının 70%-ə yaxın hissəsi qeyri-neft sektorunun payına düşür.

Bu sahənin əsas istiqamətlərindən biri qeyri-neft sənayesidir. Ölkəmizdə uğurla həyata keçirilən sənayeləşmə siyasətinə uyğun olaraq, 2015-ci ildə də müasir sənaye müəssisələrinin yaradılması dəstəklənmiş, sənaye parklarının və məhəllələrinin təşkili işləri davam etdirilmiş, 270-dək sənaye müəssisəsi, o cümlədən, texniki avadanlıqlar, metal konstruksiyalar, beton məmulatları zavodları, tekstil fabriki və digər müəssisələr açılmış, bir sıra sənaye obyektlərinin tikintisinə başlanılmışdır.

Sənayeləşmə siyasətinin başlıca istiqamətlərindən biri də yeni mexanizmlərin tətbiqidir. Hazırda Sumqayıt Kimya Sənaye, Balaxanı Sənaye, Mingəçevir Sənaye parklarının təşkili, Neftçala Sənaye Məhəlləsində infrastrukturun yaradılması işləri intensiv şəkildə davam etdirilir. Sumqayıt Kimya Sənaye Parkında birinci mərhələ üzrə infrastrukturun qurulması, demək olar ki, başa çatdırılmış və rezidentlər tərəfindən 1 milyard ABŞ dollarından çox investisiyanın yatırılması planlaşdırılır.

Tullantıların təkrar emalı sahəsində regionda ilk sənaye parkı olan və ölkəmizdə “yaşıl biznes”in inkişafında əhəmiyyətli rola malik Balaxanı Sənaye Parkında xarici infrastrukturun qurulması, əsasən, başa çatdırılmışdır. İlkin olaraq, sənaye parkına 4 rezident tərəfindən 10 mln. manatdan çox investisiyanın yatırılması nəzərdə tutulur. Azərbaycan İnvestisiya Şirkətinin əsas səhmdarlarından olduğu və Qaradağ Sənaye Parkının rezidenti Bakı Gəmiqayırma Zavodunda yeni istehsal sahəsi olan gəmiqayırma sahəsində işlər müasir texnologiyalar əsasında davam etdirilir. Neftçala Sənaye Məhəlləsində isə, yaxın aylarda sahibkarlar tərəfindən ümumi investisiya məbləği 20 milyon manatdan çox olan 7 layihə üzrə müəssisələrin qurulmasına başlanacaq və bunun nəticəsində, 380 iş yeri açılacaqdır”.

Ölkənin dayanıqlı inkişafının təmin edilməsi baxımından, kənd təsərrüfatınını da böyük potensiala malik olduğunu deyən V.Qasımlı aqrar sektora güzəştli kreditlərin, vergi güzəştlərinin, subsidiyaların verilməsi, aqrolizinq xidmətlərinin göstərilməsi və digər dövlət dəstəyi tədbirləri nəticəsində, bir sıra ərzaq məhsullarının istehsalının artmasına səbəb olub: “Dövlət başçısı tərəfindən sonuncu müşavirələrdə kənd təsərrüfatı məhsulları ilə özünütəminat səviyyəsinin yüksəldilməsi, əlavə əkin sahələrinin dövriyyəyə cəlb edilməsi və məhsuldarlığın artırılması, pambıqçılığın, tütünçülüyün, çaycılığın, üzümçülüyün və digər ənənəvi sahələrin inkişafı istiqamətində bir sıra tapşırıqlar verilmişdir. Bununla əlaqədar, Kənd Təsərrüfatı Nazirliyinin və digər aidiyyəti qurumların iştirakı ilə İqtisadiyyat Nazirliyində pambıq və tütün istehsalı və emalı ilə məşğul olan müəssisələrlə müzakirələr keçirilmişdir. Aparılmış müzakirələrin nəticəsi olaraq, fermerlərdən pambığın əhəmiyyətli dərəcədə baha qiymətə alınması, 2016-cı ildə əvvəlki ildəkindən 80% çox - 30 min hektar sahədə pambıq əkilməsi və 70 min ton xam pambıq tədarük edilməsi planlaşdırılır. Stimullaşdırma tədbirləri, pambıq əkini sahələrinin genişləndirilməsi bu sahədə çalışanların sayının ötən illə müqayisədə 2 dəfəyə yaxın artmasına və ya 15 mindən çox yeni iş yerinin açılmasına imkan verəcəkdir”.

Elman Sadıqov: “İkiqat təzyiq olsa da, neft bu səviyyələrdə qala bilməyəcək”

İqtisadçı-ekspert Elman Sadıqov bildirib ki, hazırda dünya iqtisadiyyatına koronavirusun təsirləri, dünya iqtisadiyyatında baş verənlər diqqət mərkəzindədir: “Düşünürəm ki, ölkəmiz panikaya imkan verməyəcək və ciddi problemlərin olacağı gözlənilmir”. Dövlət başçısı neftin qiymətinin aşağı düşməsi ilə bağlı çıxışlarında da bildirib ki, bu, Azərbaycan üçün problemlər yaratmır: “Neftin qiymətinin aşağı düşməsinə baxmayaraq, ölkədə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində görülən işlər nəticəsində, bu, Azərbaycan iqtisadiyyatına ciddi təsir etməyib”.

Ekspertlərin sözlərinə görə, 2004-cü ildən başlayaraq, son 16 il ərzində, Azərbaycan dünya miqyasında iqtisadi və sosial baxımdan ən sürətlə inkişaf edən ölkə hesab olunur. Bu müddət ərzində onun ümumi daxili məhsulu 3,4 dəfə, sənaye istehsalı 2,7 dəfə, valyuta ehtiyatları isə 28 dəfəyə qədər artıb. Göstərilən dövrdə ölkədə orta aylıq əməkhaqqı 5,7, orta aylıq pensiya 9,2 dəfə yüksəlib. Neftin qiymətinin aşağı düşməsi gəlirlərimizi azaldacaq, ancaq bu, heç bir halda, fəlakət sayıla bilməz. Biz artıq neft gəlirlərini kifayət qədər səmərəli istifadə etməklə, qeyri-neft sektorunun inkişafında yüksək nəticələr əldə edə bilmişik.

Tahir Mirkişili: “Neft bazarındakı dəyişiklik Azərbaycan iqtisadiyyatında ciddi təlatümlər yaradacaq səviyyədə deyil”

Milli Məclisin deputatı Tahir Mirkişili dünya bazarında neftin qiymətinin ucuzlaşmasına münasibət bildirərək, bu prosesin Azərbaycana təsirindən də danışıb: “Neft qiymətinin kəskin düşməsi neft ixrac edən ölkələrin iqtisadiyyatına təsirsiz ötüşməyəcək. Amma hazırda Azəraycan gündə orta hesabla 540 min barrel xam neft ixrac edir. 2019-cu ildə, bütövlükdə, ixracımız idxalımızdan 8 milyard dollar çox olub (qızıl idxalını nəzərə almasaq). Xam neft ixracımız 15 milyard dollara yaxın olub. 2019-cu ilin 9 ayının yekunlarına görə, tədiyə balansında neft-qaz sektoru üzrə profisit 9,9 mlrd. dollar, qeyri-neft sektorunda isə defisit 4,8 mlrd. dollar olub. Dövlət Neft Fondunun 2020-ci il üçün gəlirləri 12,4 milyard. manat, bu gəlirləri isə 11,4 milyard. manatı (92%-i) dövlət büdcəsinə transfert üçün nəzərdə tutulub. Neftin qiymətinin dəyişməsini Azərbaycan iqtisadiyyatına təsirindən danışarkən, 3 ssenarini nəzərə almaq lazımdır: Qısamüddətli, Ortamüddətli və Uzunmüddətli. Öncə, deyək ki, neftin qiyməti dövlət büdcəsində 1 barrelinin qiyməti 55 dollar həddində götürülüb. Yəni neftin 1 barrelinin qiymətinin 30 dollar həddində olması Azərbaycanın hər gün nəzərdə tutulmuş gəlirdən sadə hesabla 13,5 milyon dollar az gəlir əldə etməsinə səbəb olacaq”.

Millət vəkili onu da bildirib ki, yuxarıda göstərdiyimiz kimi, bu ssenarilərin heç biri Azərbaycan iqtisadiyyatında ciddi təlatümlər yarada biləcək səviyyədə deyil: “Burada kifayət qədər digər amillər də var ki, daha geniş yazmaq olar. Tədiyə balansının 5,1 milyard dollarlıq müsbət saldosu, ixracın idxalı 8 milyard dollar üstələməsi neft qiymətlərinin belə kəskin düşməsinin ölkə iqtisadiyyatına təsirini minimallaşdırır. Eyni zamanda, son illər Azərbaycan Prezidenti tərəfindən həyata keçirilən islahatlar, qeyri-neft sektorunun sürətli inkişafı, qeyri-neft ixracının artım sürətinin yüksək olması belə təsirləri minimallaşdırır. Ölkədə həyata keçirilən şəffaflaşma tədbirləri nəticəsində, dövlət büdcəsi gəlirlərinin son 2 ayda 250 milyon manat artması büdcə öhdəliklərinin də yerinə yetirilməsi baxımından mühüm nəticədir. Azərbaycan iqtisadiyyatının kifayət qədər imkanları toplandığından, belə təsirlərin Azərbaycan manatını yenidən devalvasiyaya uğradacağı ehtimalları minimaldır, demək olar ki, yoxdur. Əhalini ən çox düşündürən bu sualın cavabına, iqtisadçı olaraq demək istərdim ki, tələşə ehtiyac yoxdur, neft bazarının bu cür dəyişkənliyinə öyrəşmək lazımdır”.

RƏFİQƏ KAMALQIZI

Vüqar Rəhimzadə: "Yeni parlament ölkəmizin hərtərəfli inkişafına yönələn təkmil qanunların qəbulunu daha da sürətləndirəcək"

9 fevral parlament seçkiləri Azərbaycanın demokratiya tarixinə yeni bir səhifə yazdı. Bu tarix, eyni zamanda, yeni, təkmil, müasir parlamentin formalaşmasının başlanğıcı oldu. Dövrün, zamanın tələbinə uyğun təkmilləşmənin qanunverici qurumda da öz əksini tapması günümüzün əsas tələbinə çevrilməklə ölkənin ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının belə bir təşəbbüslə çıxış etməsini şərtləndirdi. Artıq martın 10-da altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası keçirildi. Əminik ki, yeni fəaliyyətə başlayan parlament bütün sahələrin inkişafına xidmət edən yeni, təkmil qanunların qəbulu ilə ölkəmizin davamlı inkişafına öz dəstəyini verəcək.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında siyasi elmlər doktoru, Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə bildirib.

V.Rəhimzadə bu mühüm məqamı xüsusi qeyd edib ki, islahatlara meyillilik və rəhbərliyə olan inam əmsalına görə Azərbaycan dünyada ilk onluqdadır. Təkcə ötən ildə və cari ilin arxada qalan dövründə atılan addımlara, imzalanan fərman və sərəncamlara diqqət yetirmək kifayətdir. Bu gün ölkəmizdə hansı sahəyə diqqət yetirsək, yalnız və yalnız böyük inkişafın, tərəqqinin şahidi olarıq. Ölkənin hərtərəfli inkişafında əhəmiyyətli rol oynayan qanunlarımızın, Milli Konstitusiyamızın zamanın tələbinə uyğun olaraq təkmilləşməsi dövlətimizin həyata keçirdiyi siyasətin prioritet istiqamətidirsə, bu halda yeniləşmənin, təkmilləşmənin ümumilikdə qanunverici hakimiyyəti əhatə etməsi də təqdirəlayiqdir.

Baş redaktor diqqəti Prezident İlham Əliyevin altıncı çağırış Milli Məclisin fəaliyyətə başlaması münasibətilə təbrikinə, eyni zamanda, beşinci çağırış Milli Məclisin deputatlarının səmərəli fəaliyyətlərinə verdiyi yüksək dəyərə yönəldərək bildirib ki, dövlətimizin başçısı altıncı çağırış Milli Məclisin də uğurla fəaliyyət göstərəcəyinə, ölkəmizdə aparılan genişmiqyaslı və çoxşaxəli islahatlara, onların dərinləşməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə edib.

V.Rəhimzadə vurğulayıb ki, altıncı çağırış Milli Məclisə seçkilər bir daha Azərbaycanın demokratik cəmiyyətin varlığını təsdiqləyən bütün amillərin ölkəmizdə bərqərar olmasında maraqlı olduğunu ortaya qoydu: "Ölkəmizdə çoxpartiyalı sistemin formalaşması, həmçinin bütün siyasi partiyalara fəaliyyətləri üçün eyni şəraitin yaradılması dövlət siyasətinin əsasında dayanır. 9 fevral parlament seçkilərində 20-yə yaxın siyasi partiyanın iştirakı deyilənlərin bariz nümunəsidir. Dövlətimizin başçısı İlham Əliyev altıncı çağırış Milli Məclisin ilk iclasında da xüsusi vurğulayıb ki, seçkilərdə bütün siyasi qüvvələr iştirak ediblər. Nəticədə altıncı çağırış Milli Məclis çoxpartiyalı məclis kimi formalaşır. Seçkilərdə Yeni Azərbaycan Partiyası yerlərin əksəriyyətini əldə edib. Prezident İlham Əliyev bu çağırışı da edib ki, siyasi sistemin möhkəmləndirilməsi, siyasi münasibətləri sağlam zəmində inkişaf etdirmək üçün bütün partiyaların nümayəndələri Milli Məclisin rəhbərliyində və komitələrinin rəhbərliyində təmsil olunmalıdırlar".

Baş redaktor Prezident İlham Əliyevin çıxışında əksini tapan mühüm məqamlardan geniş bəhs edərək bildirib ki, dövlətimizin başçısı bir daha bu reallığı diqqətə çatdırıb ki, seçkilər Azərbaycanda aparılan siyasi kursa alternativ olmadığını sübut etdi. Bu gün ölkəmizdə xalq sabitlik və təhlükəsizlik şəraitində yaşayır. Son 16 ildə Azərbaycanda əldə edilən iqtisadi inkişafın dünyada təkrarı yoxdur.

V.Rəhimzadə altıncı çağırış Milli Məclisə seçilmiş bütün deputatları, eyni zamanda, Milli Məclisin və komitələrin yeni rəhbərliyini təbrik edib, Azərbaycanın daha da inkişafı üçün bütün sahələrdə, o cümlədən həqiqətlərimizin, Dağlıq Qarabağ münaqişəsinin əsl mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində fəailyyətlərində uğurlar arzulayıb. Modernləşməni, yeniləşməni həyata keçirdiyi siyasətin önündə saxlayan Azərbaycanın yeni iqtisadi, sosial, hüquqi islahatların, həmçinin dünyanın yeni xarici siyasətinin müzakirəsi üçün ideal məkan kimi qəbul olunmasında hakimiyyətin hər üç-icra, qanunverici və məhkəmə-hüquq sistemində təkmilləşmənin vəhdətliyinin qorunması əhəmiyyətli rol oynayır. Əminik ki, dünyanın diqqətini ölkəmizə yönəldən uğurlarımız bundan sonra da davamlı olacaq, Azərbaycan yeniliklərə imza atan ölkə kimi mövqeyini daha da möhkəmləndirəcək. Azərbaycanı inkişaf etmiş ölkələr sırasında görmək istəyimiz artıq bu günümüzün reallıqları sırasındadır.

Bəhruz Quliyev: "Bu, Azərbaycan xanımının əxlaqi-mənəvi dəyərlərinə hücum deməkdir"

"Şərq qadını üçün feminizmə qoşulmaq düzgün deyil. Çünki Şərq qadınında əxlaqi və mənəvi dəyərlər üstünlük təşkil etməlidir". Bu sözləri "Sherg.az"a açıqlamasında "Səs" qəzetinin baş redaktoru, siyasi şərhçi Bəhruz Quliyev deyib. Onun sözlərinə görə, "8 mart aksiyası" və burada səsləndirilən şüarlar Azərbaycan qadınına yaraşmayan bir haldır:

"Feminist hərəkatının tarixi 19-cu əsrin sonu 20-ci əsrin əvvəllərinə gedib çıxır. Bu hərəkat ilk dəfə Qərbdə başlayıb. Həmin dövrdə qərbdə yaşayan qadınların mənəvi-əxlaqi azadlığa ehtiyacı olub. Beləliklə, qadınlar feminist hərəkatını yaratmaqla cəmiyyətdə mənəvi azadlıqları uğrunda mübarizə aparmağa başlayıblar. Ümumiyyətlə, ismət anlayışı yalnız müsəlman qadınında var. Heç bir Qərb təfəkküründə ismət anlayışı yoxdur. Məhz feminizmin özü də mənəvi anlayış olduğu üçün mənəvi cəhətdən xanımların əxlaqi azadlığını istəyib. Ona görə də Şərq qadını üçün feminizm təfəkkürü düzgün deyil".

B.Quliyev bildirib ki, feminist hərəkatı adı altında bəzi Azərbaycan qızlarını öyrədib müxtəlif ictimai yerlərdə tərbiyəsizlik etmək qadına azadlıq istəmək deyil:

"Bu, Azərbaycan xanımının əxlaqi-mənəvi dəyərlərinə hücum deməkdir. Feminizm mənəvi dəyərlərimizi korlayan bir hərəkatdır. Əxlaqi dəyərlərimizə qarşı həssas olmalıyıq. Bizi Qərb qadınından fərqləndirən bəzi dəyərlər var ki, atababalarımız onlara hörmətlə yanaşıb və bu dövrə gətirib çıxarıb.

Biz də həmin dəyərləri gələcək nəsillərə ötürməliyik. Həmin dəyərlər müsəlman dünyasının bizə verdiyi ənənədir. Hansısa müxalif təşkilatın və ya hərəkatın sifarişi ilə feminizm aksiyasını fəallaşdırmaq yolverilməzdir.

Azərbaycan qızları kiminsə siyasi oyununun qurbanına çevrilə bilər. Ona görə də Azərbaycanın mənəvi dəyərlərini düşünənlər bu hərəkatı pisləyəcək. Feminist hərəkatı və bəzi qızları öyrədib əxlaqsız şüarlarla ictimai yerlərdə çığırmaq yolverilməz və ədəbsizlikdir. Ona görə də bu hərəkat ictimai qınağa tuş gəldi. Xanımlarımız heç vaxt alətə çevrilməməli, kiminsə sifarişini yerinə yetirməli deyil. Onlar ata-babalarımızdan gələn mənəvi-əxlaqi dəyərlərimizə hörmətlə yanaşmalıdır".

XİN: "Belçikada Natəvanın abidəsinə qarşı vandalizmin törədilməsi ilə bağlı cinayət işi açılıb"

Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva Belçikanın Vaterlo şəhərində Xurşidbanu Natəvanın abidəsinə qarşı vandalizmin törədilməsi ilə bağlı KİV-in sualını cavablandırıb. AZƏRTAC xəbər verir ki, Leyla Abdullayeva deyib: "Belçikanın Vaterlo şəhərində ölkəmizin görkəmli şairəsi, Qarabağ xanının qızı Xurşidbanu Natəvanın abidəsinə qarşı vandalizmin törədilməsi ilə əlaqədar şəhər polisi tərəfindən cinayət işi açılıb. 2016-cı ildə ucaldılmış heykəl Vaterlo şəhərinin mühafizə edilən tarixi abidələri siyahısına daxildir və bu səbəbdən sözügedən hadisə polis tərəfindən araşdırılır.

Əlbəttə, bu vandalizmin Ermənistan baş nazirinin Belçikaya səfəri zamanı baş verməsi diqqəti cəlb edir. Qeyd etmək istərdim ki, ölkəmizin Belçika Krallığındakı səfirliyinin əməkdaşları dərhal hadisə yerinə gedərək, yerli hakimiyyət orqanları ilə təmaslar qurublar. Məsələ Azərbaycanın Belçikadakı səfirliyinin nəzarətində saxlanılır və araşdırmanın nəticələri ilə bağlı ictimaiyyətə məlumat veriləcək".

Belçikada Natəvanın abidəsinə qarşı vandalizm aktı törədilib

Azərbaycanın dahi şairəsi Xurşudbanu Natəvanın 2016-cı ildə Azərbaycan səfirliyi tərəfindən Belçikanın Vaterloo şəhərinə hədiyyə edilmiş və bu şəhərdə ucaldılmış abidəsinə qarşı vandallıq hadisəsi törədilib. SİA xəbər verir ki, hadisəni Azərbaycanın Belçikadakı səfirliyi də mediaya təsdiqləyib. Səfirlikdən o da bldirilib ki, artıq Vaterloo polisi vandalizm aksiyasını törədənlərin aşkarlanaraq cəzalandırılması yönündə fəaliyyətə başlayıb.

Rövşən

Operativ qərargah: Koronavirusa görə karantinə alınmış şəxslərdən 312 nəfəri sərbəst buraxılıb

Azərbaycan Respublikasında koronavirus (COVID - 19) infeksiyasının yayılmasının qarşısının alınması və infeksiyaya yoluxma hallarının müəyyənləşdirilməsi məqsədilə müxtəlif xəstəxanalarda yaradılmış karantin zonalarına daxil olan şəxslərin müayinəsi davam etdirilir. Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetinin yanında operativ qərargahdan məlumat verilib. Dünya Səhiyyə Təşkilatının tövsiyələrinə uyğun olaraq, karantinə alınan şəxslər müvafiq müayinədən keçirilir, o cümlədən onlardan laborator analizlər götürülür, səhhətləri nəzarət altında saxlanılır. İnfeksiyaya yoluxma faktı təsdiq olunan şəxslər dərhal xüsusi rejimli xəstəxanalara köçürülür, onların müalicəsi ilə bağlı müvafiq tədbirlər görülür.

Martın 10-na olan məlumata görə, müayinə və laborator analizlər vasitəsilə infeksiyaya yoluxma faktı təsdiq edilməmiş və səhhəti şübhə doğurmayan 312 nəfər karantin müddətini başa vuraraq sərbəst buraxılıb.

"Dövlət başçısının genişmiqyaslı, proqram xarakterli nitqi oldu"

"Bu gün artıq Milli Məclisin ilk iclası keçirildi. Fürsətdən istifadə edərək ilk növbədə bu gün parlamentdə təmsil olunan deputatların hər birini bu şərəfli vəzifəyə layiq olduqlarına görə təbrik edirəm və gələcək fəaliyyətlərində uğurlar arzu edirəm". Bunu SİA-ya millət vəkili Cavid Osmanov deyib. "Eyni zamanda Milli Məclisin bugünkü ilk iclasında Prezident İlham Əliyev də iştirak edirdi. Dövlət başçısının burada genişmiqyaslı, proqram xarakterli nitqi oldu və Milli Məclisə gələcək fəaliyyəti ilə bağlı tövsiyyələrini verdi. Bununla belə ölkədə və beynəlxalq siyasətdə Azərbaycanın həyata keçirdiyi uğurlar, eyni zamanda bu uğurları gözügötürməyən qüvvələrdən də bəhs etdi. Dövlət başçımız ölkədə aparılan islahatlarla, o cümlədən kadr islahatları ilə bağlı fikirlərini bildirdi. Milli Məclisin yeni seçilmiş sədri və müavinlərini, komitə sədrləri və müavinlərini də ölkədə aparılan islahatların tərkib hissəsi kimi qeyd etmək olar. Rəhbərlikdə əsasən yeni simalardan ibarət insanlar oldu. Hər birimiz də inanırıq ki, gələcək növbəti beş il ərzində Azərbaycan parlamenti Azərbaycanın qanunvericilik bazasının möhkəmlənməsi, ölkədə həyata keçirilən islahatların daha sürətlə reallaşması üçün yeni qanun layihələri üzrə mövcud qanunların təkmilləşdirilməsinə dair öz töhvəsini verəcəkdir", - deyə, deputat fikrini tamamlayıb.

Ermənistanda referendum oyunu

Yaxud ölkə haraya sürüklənir?

Nikol Paşinyanın referendum oyunu vasitəsi ilə hakimiyyətdə qalmaq arzusunu inkar etməsi, onu və ölkəni daha ağır vəziyyətə doğru sürükləyir. Əbəs deyil ki, referenduma "YOX" deyən bir sıra siyasi-ictimai fəallar artıq hakimiyyət tərəfindən ya təqib olunur, ya da təhdidlərlə qarşıqarşıya qalırlar. Artıq düşmən ölkədə belə bir təəssüratlar da yaranmağa başlayıb ki, Nikol Paşinyan hökuməti bu oyunu saxta yollarla udsa belə, Ermənistan heç bir uğur əldə etməyəcək, əksinə, orta əsrlər çağına geri dönəcək. O da əbəs deyil ki, bir sıra erməni politoloqları və siyasi ekspertləri öz iddialarında Ermənistanın orta əsr diktaturasına doğru sürüklədiyini iddia edirlər.

Yervand Bozoyan, politoloq: **"Əgər Paşinyançı referendum qəbul olunsa, Ermənistan orta əsrlər diktaturası caynaqlarına düşəcək"**

"Beləliklə, Ermənistan prezidenti referendum keçirmək barədə öz fərmanını imzalayaraq, faktiki olaraq, konstitusiya sistemini pozanların sırasına düşdü".

Erməni KİV-ləri istinadən xəbər verir ki, bunu erməni siyasi şərhçisi Yervand Bozoyan deyib. O, qeyd edib ki, Paşinyanın məqsədi Konstitusiya Məhkəməsini öz nəzarəti altına götürmək və ölkədə mütləq birhakimiyyətlilik qurmaqdır. SİTAT: "Onun bu addımının 2018-ci ilin "inqilab" idealları ilə heç bir əlaqəsi yoxdur, ictimaiyyətin şüurlu hissəsinin böyük əksəriyyəti bunu başa düşür. Bəs bütün bunlar nəyə gətirib çıxara bilər? Paşinyan, əslində, Ermənistanda öz mütləq birhakimiyyətliliyini qurmaq istəyir. Əgər Paşinyançı referendum qəbul olunsa, Ermənistan orta əsrlər diktaturası caynaqlarına düşəcək".

"İrvanuk" qəzeti: **"Paşinyan 650 min "HƏ"ni qanuni yolla təmin edə bilməyəcəyini bilir və çox narahatdır, buna görə də, son iki ildə olduğu kimi, misli görünməmiş ifratçılıqlara gedəcək"**

Ölkənin "İrvanuk" nəşri isə yazır ki, baş nazir Nikol Paşinyan konstitusiya referendumunun kampaniyası zamanı növbəti ifrat addımlara hazırlaşır. Belə ki, o yenidən "Rembo" obrazı ilə xalqın gözünə kül üfürməyə, lazım gəldiyi təqdirdə isə ifratçılıqlara əl atmağa hazırlaşır. "Paşinyan 650 min "HƏ"ni qanuni yolla təmin edə bilməyəcəyini bilir və çox narahatdır, buna görə də, son iki ildə olduğu kimi, misli görünməmiş ifratçılıqlara gedəcək. Bu ifratçılıq yeni mitinqlər təşkil etmək, siyasi rəqibləri nümayişkaranə şəkildə həbsə atmaq və bu qəbildən olan digər hallardır. Amma əsas məqsəd konstitusiya referendumundan sonra baş nazirin bütün rəqiblərini sıradan çıxarmaq niyyətidir" deyə adıçəkilən nəşr yazır.

"168 Jam" qəzeti: **"Ermənistanda real hər hansı inqilabi dəyişiklik baş vermədi"**

Ermənistanın "168 Jam" nəşri isə yazır ki, ölkədə 5 aprel tarixinə təyin edilən konstitusiya referendumu, artıq başlayan hakimiyyət kampaniyası bir daha və daha parlaq şəkildə bir həqiqəti ortaya qoydu: "Paşinyan "inqilab"ı, həmin inqilabı həyata keçirən cəmiyyəti satır".

Erməni nəşrinə görə, Paşinyan "inqilab" adı ilə inqilabın həqiqi məqsədlərini aşmaq məsuliyyətindən növbəti dəfə yaxa qurtarmaq üçün onu satır: "Hakimiyyət dəyişikliyindən təxminən iki il keçib, amma Ermənistanda real hər hansı inqilabi dəyişiklik baş vermədi. Ölkədə keçmişdə mövcud olan eyni qurumlar və idarəetmə sistemi fəaliyyətdədir. Paşinyan vaxtilə özü tərəfindən dəfələrlə tənqid edilən super baş nazirlik sistemində mövqeyini bərkidib. Ölkə keçmişdəki təkanla yaşamaqda davam edir. Belə bir vəziyyətdə, hətta hakimiyyətin iqtisadi inqilabı barədə danışmaq belə qeyri-ciddidir. Ona görə ki, xüsusilə, iqtisadi həyatda hər hansı köklü dəyişiklik baş verməyib. Qeydə alınan dəyişiklik yalnız keçmiş oliqarxların indi "böyük sahibkarlar" adlandırılmasıdır. Yəni 2 il ərzində Ermənistanda baş verənlərin inqilabın nəticəsi olduğunu deməyə əsas verən hər hansı görünən, hiss edilən dəyişiklik baş verməyib. Nəticədə, geridə qalan iki il ərzində inqilabdan yeganə miras qalan, Paşinyanın dünyaya sırımaq üçün ugursuz cəhdlərindən sonra, indi də öz vətəndaşlarına satmağa çalışdığı ritorika və ya bu ad altında olan "brend"dir".

Edmon Marukyan "Kommersant" nəşrinə: **"Biz şeytanların axtarışında iştirak etməmək qərarına gəldik"**

Referendum ideyasını hədəfə alan daha bir erməni siyasətçisi - müxalifətçi "Maariflənmiş Ermənistan" partiyasının parlamentdəki fraksiya rəhbəri Edmon Marukyan isə Rusiyanın "Kommersant" nəşrinə açıqlamasında deyib ki, hakimiyyət kampaniyasının bütün məntiqi "YOX" təşəbbüsünün formalaşmasından sonra onu "qaranlıq qüvvələr"lə, köhnə hökumətlə, korrupsioner məmurların müdafiəsi ilə bağlamaqdan ibarətdir. "Sonra insanları referenduma gəlməyə inandırmaq üçün bu qrupa qarşı təbliğat aparılıb" deyən Manukyan bildirib ki, onlar bu aksiyada iştirak etməyəcəklər. SİTAT: "Biz şeytanların axtarışında iştirak etməmək qərarına gəldik. Bu, birincisi. İkincisi, prosesin konstitusiyaya zidd olduğunu söylədik. Yəni "Bəli" qərargahında iştirak və "Xeyr" qərargahında iştirak da konstitusiyaya ziddir". Konstitusiya dəyişikliklərini avtoritarizmə doğru addım hesab edə biləcək Qərb qurumlarının tənqidini də istisna etmək olmaz. Belə vəziyyətdə ölkə daxilində ziddiyyətlərin dərinləşməsi də qaçılmaz olacaq".

Göründüyü kimi, referendum arzusu Paşinyanın hakimiyyətdə qalmaq şanslarını itirə də bilər. Çünki hadisələr heç də onun istədiyi kimi getmir. Bütün bunların arxasında isə dayanan əsas faktorlardan biri onun hakimiyyətə gəlməmişdən öncə, verdiyi vədlərinin heç birini yerinə yetirməməsi və əlbəttə ki, nəticə etibarı ilə reytinqini sürətli şəkildə itirməsi reallığıdır.

Rövşən NURƏDDİNOĞLU

Koronavirusa qarşı tədbirlər gücləndirilir

Bu gün dünyanı narahat edən məsələlərdən biri koronavirus infeksiyasının yayılmasıdır. Bu günə qədər mövcud olan bir çox infeksion xəstəliklərin yoluxma mexanizminə nəzər salsaq görərik ki, virus əsasən, tənəffüs yollarının infeksion xəstəliklərində xəstə öskürdükdə, asqırdıqda və danışdıqda infeksiya selik damcıları vasitəsilə ətrafa yayılır və sağlam insana hava ilə yoluxur. Səpgili yatalaq, malyariya, taunun bubonlu forması və s. xəstəliklər qansoran cücülər vasitəsilə yayılır. İnfeksiyanın yoluxma mexanizminin aydınlaşdırılması əlbəttə ki, infeksion xəstəliklərin profilaktikasının əsasını təşkil edir.

Məlumdur ki, infeksion xəstəliklər zamanı xəstəlik törədicisinin xəstələrdən sağlamlara kontakt və ya aralıq obyektləri vasitəsilə ötürülür. Çiçək, dabaq, donuzların taunu, atların qripi yüksək dərəcədə kontagioz xəstəliklər hesab edilir.

Koronavirusların insandan insana keçməsi, ilk növbədə asqırıq və öskürək nəticəsində yaranan tənəffüs damlaları vasitəsilə yaxın təmaslar nəticəsində, baş verdiyi ehtimal edilir. Çindən yayılan koronavirusa yoluxmuş şəxslərin sayı getdikcə artır. İnsanda virusun simptomlarının aşkarlanması təhlükənin daha da artdığını göstərir. Əlbəttə ki, hər bir dövlət öz vətəndaşının xəstəliyə yoluxmasının qarşısının alınması üçün məqsədli tədbirlər görür.

Çinlə sərhəd olan ölkələr xüsusi təhlükəsizlik tədbirləri görməyə başlayıblar. Qazaxıstan və Rusiya Çinlə gediş-gəlişi və mal idxalı sahəsində sərt nəzarət tədbirləri və məhdudiyyətlər tətbiq etməyə başlayıblar. Koronavirus (COVİD-19) infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə təxirəsalınmaz tədbirlər davam etdirilir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin yanında operativ qərargahdan bildirilib ki, ölkədə koronavirusa yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar müvafiq xəstəxanalar ayrılıb və karantin zonaları yaradılıb. İran İslam Respublikası ilə sərhəddə profilaktik tədbirlərin həyata keçirilməsi məqsədilə səyyar çadırlar qurulub.

Əhalinin sağlamlığının və təhlükəsizliyinin təmin edilməsi məqsədilə artıq 29 fevral tarixindən etibarən Azərbaycanın İranla sərhədin məhdudlaşdırıcı rejim əsasında müvəqqəti bağlanması barədə qərar qəbul olunub. Koronavirusun aşkar olunduğu ölkələrdən gələn şəxslərin müayinəsi ilə bağlı zəruri tədbirlər həyata keçirilir.

İxtisaslaşmış xəstəxanalar və laboratoriyalar xəstəliyin müayinəsi və müalicəsi üçün müvafiq avadanlıqlarla və dərman preparatları ilə təmin edilir. Peşəkar həkimlər bölgələrdə bu məqsədlə ayrılmış xəstəxanalara ezam olunublar. İnfeksiyaya yoluxmuş şəxslərin müalicəsi, onların mümkün kontaktlarının müəyyənləşdirilməsi istiqamətində zəruri tədbirlər davam etdirilir. Koronavirusun yayılmasının qarşısının alınması və müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə Ümumdünya Səhiyyə Təşkilatı ilə birgə intensiv iş aparılır, verilən bütün tövsiyələrin yerinə yetirilməsi üçün ciddi səylər göstərilir.

Bundan başqa, Çin, Almaniya və digər ölkələrlə aparılan danışıqlar nəticəsində lazımi avadanlıqların, preparatlarının, mütəxəssislərin Azərbaycana gətirilməsi üçün müvafiq razılaşma əldə olunub. Koronavirusun Azərbaycanda yayılmaması üçün bütün lazımi tədbirlər həyata keçirilir, sanitar-epidemoloji vəziyyət ciddi nəzarət altında saxlanılır.

Zümrüd BAYRAMOVA

Koçaryanın məhkəməsi təxirə salınıb

Ermənistanın sabiq prezidenti Robert Koçaryanın və digərlərinin məhkəmə iclası təxirə salınıb. SİA erməni mətbuatına istinadən xəbər verir ki, iclasın təxirə salınması Koçaryanın hazırda xəstəxanada müalicə alması ilə əlaqədardır. Hakim



Anna Danibekyan "Erebuni" tibb mərkəzinə yerləşdirilən keçmiş prezidentin vəziyyətinin məhkəməyə gətirilməsinə imkan vermədiyini deyib. Növbəti proses martın 17-nə təyin edilib.

Bakıda və respublikanın müxtəlif regionlarında ənənəvi Novruz şənlikləri ləğv edilir

Ümumdünya Səhiyyə Təşkilatı son günlərdə koronavirus xəstəliyinə yoluxma hallarının artmasını, virusun coğrafiyasının genişlənməsini nəzərə alaraq dövlətlər tərəfindən müvafiq preventiv tədbirlərin gücləndirilməsi, eləcə də kütləvi tədbirlərin təxirə salınması təşəbbüsü ilə çıxış edib.

Nazirlər Kabineti yanında operativ qərargahdan AZƏRTAC-a bildiriblər ki, virusun dünya üzrə əhatə dairəsi genişləndiyindən ölkəmizdə də müvafiq profilaktik tədbirlər gücləndirilib. Bununla əlaqədar bildiririk ki, Bakı şəhərində və respublikanın müxtəlif regionlarında mart ayında keçirilməli olan

ənənəvi Novruz şənlikləri ləğv edilir.

Operativ qərargah mütəxəssislər ilə aparılan məsləhətləşmələr və Ümumdünya Səhiyyə Təşkilatının tövsiyələrindən irəli gələrək ayrı-ayrı qurumları yaxın müddətdə hər-hansı kütləvi tədbir keçirməməyə, artıq təyin olunan tədbirlərin tarixini isə dəyişdirməyə çağırır.

Həmçinin adamların sıx toplaşdığı məkanlarda virusa yoluxma riski yüksək olduğundan qarşıdakı aylarda toy və bu cür məclislərin təxirə salınması, yas mərasimlərinin isə kütləvi keçirilməməsi tövsiyə edilir. Virusun geniş yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan hökuməti tərəfindən aparılan tədbirlərə dəstək olaraq vətəndaşlarımızı bir daha adamların sıx toplaşdığı yerlərdən, qapalı məkanlardan uzaq durmağa, xarici ölkələrə, eyni zamanda, risk qrupu ölkələrinə səfərlərini təxirə salmağa, vacib səfərlər zamanı isə qoruyucu tədbirlərə maksimum riayət etməyə (qoruyucu tibbi maska, xüsusi qoruyucu eynək, dezinfeksiyaedici vasitələrdən istifadə və s.) çağırırıq.

YAP İsmayıllı rayon təşkilatı şəhid analarını ziyarət edib

Yeni Azərbaycan Partiyası İsmayıllı rayon təşkilatı gənclər birliyinin bir qrup üzvü 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə İsmayıllı şəhərində yaşayan şəhid analarını ziyarət edib, onları bayram münasibəti ilə təbrik ediblər. Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş Vətən övladları yad olunub.

Gənclər birliyinin üzvləri Vətən uğrunda övladlarını itirən analara öz ehtiramlarını bildiriblər. Səmimi söhbət zamanı analar övladları ilə bağlı xatirələrini bölüşüb, onların döyüş yolundan danışıblar. Qeyd edilib ki, şəhidlərimiz kimi, onların anaları, xanımları və övladları da bizim üçün çox dəyərlidir. Xalqımız onları daim qürurla yad edir. Eyni zamanda, Vətən uğrunda övladlarını itirən valideynlərin və ailələrin kədərini də bölüşür. Şəhid analarına bütün xalqımızın fəxr etdiyi övladlar böyütdükləri üçün təşəkkür edilib.

Öz növbəsində, vətəndaşlar ölkə Prezidenti, Yeni Azərbaycan Partiyasının onlara göstərdiyi diqqət və qayğıya görə təşəkkürlərini bildiriblər. Qeyd olunub ki, bu gün Respublika Prezidenti İlham Əliyev şəhid ailələrinə diqqət və qayğı göstərir, onların həyat şəraitinin və güzəranlarının yaxşılaşdırılması üçün ardıcıl tədbirlər görür.

ZÜMRÜD BAYRAMOVA

NOVRUZ ÇƏLƏNGİ

YEL BABAYA SALAM OLSUN!

Küləklər verər müjdəmi,
Yetişər novbahar dəmi,
Hərarət sarar aləmi,
Yel Babaya salam olsun!

Ağ Yel ağ, Qara yel qara,
Al rəng miras Gilavara,
Xəzri göylə gələr kara,
Yel Babaya salam olsun!

Suda yaradar fırtına,
Alov qalxar ərş qatına,
Toxum səpər yer altına,
Yel Babaya salam olsun!

Xəfif mehə qənşər gələk,
Yel Dağına edək dilək,
Üz çevirməz bizdən fələk,
Yel Babaya salam olsun!

Nəfəsi mizana kömək,
Tutyəsi ozana kömək,
Yumağı azana kömək,
Yel Babaya salam olsun!

Yel tərk etsə "Qara Nəhri",
Sona yetər qışın qəhri,
Bizə çatar yazın bəhri,
Yel Babaya salam olsun!

Əssə güclü səmum yeli,
Əhrimənin sınar beli,
Bəmləşər səsinin zili,
Yel Babaya salam olsun!

Ruzigarın sərt üzüdü,
Haqq ölçülü tərəzidi,
Yel Baba Yəzdan özüdü,
Yel Babaya salam olsun!

Salxım söyüdləri əyər,
Budaqları yerə dəyər,
Arzu-kama çatın deyər,
Yel Babaya salam olsun!

Valeh Məhərrəmli

YAP Siyəzən rayon təşkilatının könüllüləri şəhid ailələrini ziyarət ediblər

Yeni Azərbaycan Partiyasının Siyəzən rayon təşkilatı gənclər birliyinin könüllüləri 8 Mart Beynəlxalq Qadınlar Günü münasibətilə Siyəzən rayonunda bir neçə şəhid ailəsinə ziyarət təşkil etmiş və görüşlərdə onlara tər gül dəstələri və simvolik hədiyyələr təqdim etmişlər. Görüşdən məmnun qalan könüllülər Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda həlak olan bütün şəhidlərimizin əziz xatirəsini böyük ehtiram və məhəbbətlə yad edərək, bildiriblər ki, biz bugünkü firavan və rahat həyat şəraitimiz, müstəqil dövlətçiliyimiz üçün qəhrəman şəhidlərimizə minnətdar olmalı, onların əbədiyaşar xatirəsini əziz tutmalı, şəhid ailələrinə daim ən yüksək diqqət və qayğı ilə yanaşmalı, onların həyat şəraitinin yaxşılaşması üçün əlimizdən gələni əsirgəməməliyik. Könüllülərin nəcib aksiyasından məmnun qalan şəhid ailələri Azərbaycan Prezidenti İlham Əliyevin ölkəmizi inkişafa və sabitliyə aparan uğurlu siyasətini dəstəklədiklərini bildiriblər. Bir daha bu gün münasibətilə YAP Siyəzən rayon təşkilatının aktiv gəncləri olaraq, başda şəhid ailələrinə mənsub xanımlarımız olmaqla, bütün xanımları təbrik etməyi özlərinə borc bildiklərini dilə gətiriblər.

ZÜMRÜD

"Özlərini "feminist" adlandıranlar qırmızı xətti keçdilər"

"Bakıda icazəsiz aksiya keçirənlərin hərəkətləri milli-mənəvi dəyərlərimizə zidd olan, eyni zamanda dünyanın müasir tələbləri ilə uyğunlaşmırdı". Bu fikirləri SİA-ya açıqlamasında politoloq Nəzakət Məmmədova deyib.

O bildirib ki, feminizmin ilk şərtlərindən biri cinsəlliyə qarşı olmaqdır, lakin "feminist" adı ilə toplaşanlar isə əksinə cinsəllik məsələlərini önə çıxarmışdılar: "Aksiyada tamamilə milli-mənəvi dəyərlərə zidd olan şüarların səsləndirilməsi təxribat idi. Hesab edirəm ki, atılan addım təkcə milli mənəvi dəyərlərimizə, ideologiyamıza hücum deyil, bu, həm də ölkəmizdə ictimai sabitliyin pozulmasına qarşı müəyyən xarici qüvvələr tərəfindən yönləndirilən təhdid idi".

Politoloq söyləyib ki, elə məsələlər var ki, onlar Azərbaycan xalqı üçün həqiqətən də qırmızı xətdir və oradan keçilirsə, bu, artıq təhlükəli məqamdır: "Çox təəssüf ki, özlərini "feminist" adlandıranlar bu xətti keçdilər. Əksinə onlar feminizmi gözdən saldılar. Artıq ictimaiyyət feminizmin müsbət təreflərini belə görmək istəmir. Feminizm deyəndə o günkü mənzərələrlə xatırlanır".

N.Məmmədova qeyd edib ki, əslində, feminizmin müsbət tərəfləri var: "Feminizm, əslində, ilkin dövründən başlayaraq, bu günə qədər müəyyən yol keçmiş, bəşəriyyətin ideoloji cərəyanıdır. Əmin edirəm ki, bu addan istifadə edənlər ümumiyyətlə bu anlamı başa düşmür, heç bir məlumata malik deyillər. Sadəcə, müəyyən mərkəzlərdən idarə olunan hərəkatdır".

Nailə Məhərrəmova

Martın 15-də və 29-da keçirilməsi nəzərdə tutulan imtahanlar təxirə salındı

Martın 15-də və 29-da keçirilməsi nəzərdə tutulan imtahanlar təxirə salınıb. Dövlət İmtahan Mərkəzidən AZƏRTAC-a bildirilib ki, koronavirus infeksiyasının Azərbaycan ərazisində yarada biləcəyi təhlükənin qarşısının alınması məqsədilə həyata keçirilən təxirəsalınmaz tədbirlərə uyğun olaraq yoluxma hallarının qarşısının alınması, bu sahədə aparılan müvafiq profilaktik tədbirlərin effektivliyinin yüksəldilməsi məqsədilə martın 15-də və 29-da keçirilməsi planlaşdırılan imtahanlar təxirə salınıb.

Feminizmdən daha çox fahişəlik

Və ya koronavirusdan daha betəri...

Dünyanı cənginə alan koronavirus infeksiyasına qarşı mübarizə aparan bütün dünya martın 8-də Beynəlxalq Qadınlar Gününü də qeyd etməyi unutmadı. Hətta deyərdim ki, budəfəki 8 mart qadınlar günü daha əvvəlkilərindən seçildi də - özünəməxsusluğu ilə. Çünki qadın gözəlliyi, qadınlıq məfhumu daim bəşər övladı üçün danılmaz bir dəyərdir. Elə bir dəyərdir ki, onun qarşısını heç bir virus, heç bir dəhşətli xəstəlik almaq iqtidarında deyil. Necə deyərlər, qadın adı elə onun üstündədir, özəlliyində və gözəlliyindədir.

Lakin daha bir məsələ də var, deyirlər ki, çirkin qadın yoxdur, baxımsız qadın var. Baxımsız qadın isə o demək deyil ki, həmin xanım yalnız özünün makiyajına, pedikür və manikürünə, saç düzümü quruluşuna diqqət yetirmir, baxımsız qadın deyərkən, həm də onun iç dünyasındakı çatışmayan cəhətləri də nəzərə alınmalıdır. Bu faktora isə, əslində, məqsədli şəkildə yanaşdım. Belə bir əsrarəngiz bayram əhval-ruhiyyəli günündə ürəkləri bulandıran hadisəni şərh etmək üçün.

Beləliklə, martın 8-də özlərini "feminist" adlandıran bir qrup baxımsız (!) və heç bir ailə tərbiyəsinə, xüsusilə də, millimənəvi dəyərlərdən qat-qat uzaq olan nəzarətsiz qadın rəsmi icazə olmadan şəhərin ortasında aksiya keçirməyə cəhd göstərdi. Yenə də onların arasında şəhidimiz - milli qəhrəmanımız Mübariz İbrahimova qarşı həqarət edən Nərmin Şahmarzadə, ondan heç də fərqlənməyən Xədicə İsmayıl və ətrafındakı digər özükimiləri gözlərə dəydilər. Onlardan isə, əslində, hər hansı milli-mənəvi və azərbaycançılıq dəyərlərini gözləmək, ümumiyyətlə, mümkün deyil.

"Kimə istəsə verməyə hazır olan" məxluqələrə dəstək verən Ə.Kərimli onlarla eyni cinahdan çıxış edən və əsl nakişilik obrazı sərgiləyən gədələrə də qahmar çıxıb

Onu da qeyd edək ki, sözügedən "feministlər" aksiyasında qaldırılan rüsvayçı şüarların hər birindəki, sözün əsl mənasında, idbarçılıq və biabırçılıq əlamətləri xalqı ciddi şəkildə hiddətləndirdi. Bu gün Azərbaycanda mövcud olan gender bərabərliyi, qadın hüquqlarının qorunması və s. mövcud istiqamətlərdə dövlət tərəfindən maksimum işlər görülür, mühüm layihələr həyata keçirilir. Belə olan halda, sözdə "feministlərin" məlum biabırçı şüar və çağırışları, sadəcə, müəyyən xarici təşkilatların sifarişi əsasında səsləndi. Ümumiyyətlə, özlərini "xanım" adlandıran və siyasi (həm də fiziki) cəhətdən fahişələşmiş məxluqələrin bəlli davranışları da, belə nəticəyə gəlməyə zəmin yaradır ki, onlar azərbaycançılıqdan, milli dəyər məfhumlarından tamamilə çıxıblar və bu dəyərlərə yad olan ünsürlərdirlər.

Yeri gəlmişkən, biabırçı şüarların qaldırıldığı icazəsiz aksiyanı dəstəkləyənlərdən biri də AXCP sədri Əli Kərimli oldu. Harada aş, orada baş olmağa alışqan olan AXCP sədrinin dərhal sosial şəbəkələrdə bu utancverici olaya dəstək çıxması arxasında isə digər motivlər də dayanır. Misal üçün, belə çıxır ki, "kimə istəsə verməyə hazır olan" məxluqələrə dəstək verən Ə.Kərimli onlarla eyni cinahdan çıxış edən və əsl nakişilik obrazı sərgiləyən gədələrə də qahmar çıxıb. Daha dəqiq desək, Kərimli LGBT deyilən və xalqımız tərəfindən rədd edilən, lənətlənən quruma - lezbiyanlara, homoseksuallara, transseksuallara açıq-aşkar dəstək göstərir. Yəni bu vasitə ilə ətrafında onları da görmək arzusu ilə alışıb-yanır. Əks halda, o, "feministlərin" aksiyasına dərhal dəstək göstərməzdi.

Onu da qeyd edək ki, sözügedən aksiyaya cəmiyyət tərəfindən də kəskin qınaqlar səsləndirildi. Jurnalistlər, fəal ictimaiyyətçilər və s. dairələri təmsil edənlər bu olayı ən sərt şəkildə qınaq hədəfinə layiq görən rəy və fikirlərlə çıxış etdilər.

Sənan Nəcəfovdan Nigar Şahmarzadəyə: "O, burada könül bulandırmağa lazımdır"

Misal üçün, "qhtxeber.az" saytının baş redaktoru, jurnalist Sənan Nəcəfov N.Şahmarzadənin siyasi həyasızlığını bu cür qiymətləndirib. SİTAT: "Bunun xaricə getməsi, sığınacaq alması üçün hər cür şərait var. Məsələn, Mübariz haqda çərənlədiyi üçün olmazın təhqirlərini eşitdi, erməni xala və dayıları Mübarizdən bu əxlaqsızın vasitəsilə guya qisas aldılar. Sonra haqqında inzibati qərar çıxdı, tualet təmizləməli oldu, sosial şəbəkələrdə haqq etdiyi sözləri aldı. Yenə də xaricə getmədi. Səbəb? O, burada könül bulandırmağa lazımdır. Dayısı həbsdə olduğu müddətdə, skrində qeyd etdiyi hissələrini gözümüzə soxacaq".

8 MART AKSİYASININ İŞTİRAKÇISI ÖZÜNÜ BİNADAN ATIB

"8 debillik" aksiyası ilə özlərini biabır etdilər"

Yaxud aksiyanı "8 debillik" adlandırdığı digər statusunda "Azadlıq" radiosunun sözügedən aksiyanı işıqlandırmasına da münasibət bildirən S.Nəcəfov qeyd edib ki, adıçəkilən media qurumu aksiyanın gərgin (guya!) keçdiyini əks etdirən foto paylaşıb və bu vasitə ilə xarici səfirliklərdən birinin sifarişinin həyata keçirildiyini yazıb: "aZadlıq radiosu guya növbəti gedişini etmək istəyib. Bu skrində gördüyünüz fotonu paylaşıb və guya dəhşətli "aksiyanın" gərginliyi - zad var. Əvəzində, nə alınıb? Linki tapıb baxın. Elə şeylər yazılıb ki, mən onu paylaşa bilmərəm, utanıram.

Ümumiyyətlə, bu "8 debillik" aksiyası ilə özlərini biabır etdilər. Əslində, kim olduqları bəlli idi, sadəcə, səfirliklərdən birinin sponsorluğu ilə özlərini açıb ortaya qoydular. Halbuki ortada idilər...sadəcə, əlahəzrət qrant barıtı bir az çox etdi".

Vüsal Məmmədovdan Əli Kərimliyə: "Hər şey cəhənnəmə, ağaran tüklərinizdən utanın, barı!"

Daha bir jurnalist - Vüsal Məmmədov isə AXCP sədri Ə.Kərimliyə xitabən, qeyd edib ki, bir partiya sədri olaraq, onun bu kimi biabırçı şüarlar qaldırılan aksiyanı dəstəkləməsi heç bir çərçivəyə və əxlaqa sığmayan addımdır. O, cəbhəçilərin sədrini utanmağa çağırıb: "Əli bəy, heç utanmırsınızmı? Axı siz bir evin ağsaqqalı, bir (hətta iki) gəlinin qayınatası olacaq yaşdasınız, ayıb deyilmi, durub, vaginaya azadlıq istəyənlərə qoşulursunuz? Yekə kişisiniz, axı! Müxalifətçi olmaq, o demək deyil ki, hər etirazda dövləti pisləməyə çalışasan. Konkret bugünkü aksiya Azərbaycan xalqının ailə dəyərlərinə, əxlaq, böyük-kiçik anlayışlarına qarşı idi. Özünüzü yaşınıza uyğun aparsanız, siz onları qınamalı idiniz. Buna hünəriniz çatmaz, aydındır, barı dəstək verməyin. Hər şey cəhənnəmə, ağaran tüklərinizdən utanın, barı!"

Sadə vətəndaşlar da bu aksiyanı ən kəskin şəkildə pisləyərək, onu fahişəliyin təbliğatı kimi qiymətləndiriblər. Misal üçün, Elçin Mehdiyev adlı istifadəçi yazıb ki, bunlar feminist deyil, fahişələr toplumudur: "Bunlar feminist deyil, fahişəliyi təbliğ edən pozğunlardır, bunlar yollarını azıblar, vaginaların sərbəst vermək davası edirlər, məgər sizə qadağa qoyan var? gedin kimə istəyirsiniz verin də, ay ....., bunlar Azərbaycan qadını adına ləkədir".

Sosial şəbəkə istifadəçisindən aksiya təşkilatçısına: "Sabah bu barmağı lazımi yerinə soxanda, civ-civ səsini atacaq başına ki..."

Qeyd edək ki, aksiyanı təşkil edən, daha dəqiqi sifarişi həyata keçirən əsas "simalardan" biri də parlament seçkilərində iştirak etmiş və təbii ki, uduzmağa layiq olan Rəbiyyə Məmmədovadır. O və ətrafı utanc gətirən şüarlar qaldırmaqla yanaşı, Azərbaycan polisinə qarşı da həqarətlər edib. Halbuki polis özünü kifayət qədər təmkinli aparıb, icazəsiz aksiyanın qarşısını zor gücü tətbiq etmədən alıb. Statuslardan birində yazılıb: "Bu barmaq göstərən özünə qadın deyən məxluq bələdiyyə və parlament seçkilərində namizədliyini irəli sürmüş və təbii ki, səs toplaya bilməyən, martın 8-də küçə aksiyasını təşkilatçılarından olan Rəbiyyə Məmmədovadır. Polisə barmaq göstərir. Sabah bu barmağı lazımi yerinə soxanda civ-civ səsini atacaq başına ki, bəs mənə qarşı zor tətbiq edirlər. Amma bu zor o zordan olmayacaq, lap elə zor olacaq. Gör Azərbaycan insanına ağıl verməyə çalışanlar, hansı məxluqlardırlar e".

Sonda isə xatırladaq ki, Ə.Kərimli ilə yanaşı, "Milli Şura"nın digər üzvləri də bu biabırçı aksiyanı dəstəkləsələr də, gənclər tərəfindən sərt şəkildə qınanılmaqla yanaşı, həm də gülüş obyektinə çevriliblər. Bütövlükdə isə, fakt budur ki, artıq bu ünsürlərin "kimlikləri" açılıb-söküldü. Feminizmdən daha çox fahişəlik və ya koronavirusdan daha betər virus olan bu kimi addımların qarşısını isə xalqın hiddəti aldı!

Rövşən NURƏDDİNOĞLU

İlham Əliyev: "Azərbaycan xalqını bu ədalətsizlik, ikili standartlar siyasəti, riyakarlıq və siyasi mədəniyyətsizlik üzür"

Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının 20 faiz ərazisi - Dağlıq Qarabağ regionu və ona bitişik yeddi rayon - Xankəndi şəhəri, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları, həmçinin, Tərtər rayonunun 13, Qazax rayonunun 7, Naxçıvanın Sədərək rayonunun isə 1 kəndi Ermənistan ordusu tərəfindən işğal olunmuşdu. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi nəticəsində 1 milyondan artıq azərbaycanlı məcburi köçkün vəziyyətinə düşüb, 20 min nəfər hərbi əməliyyatlar dövründə həlak olub, 50 min nəfər əlil olub. Münaqişə nəticəsində 4 minə yaxın azərbaycanlı itkin düşüb, onların arasında 67 uşaq, 265 qadın, 326 qoca olub. Bu şəxslərin aqibəti barədə hələ də məlumat yoxdur. İki mindən çox azərbaycanlı ermənilər tərəfindən əsir və girov götürülüb.

1988-1993-cü illərdə Qarabağda, ümumilikdə, 900 yaşayış məntəqəsi, 150 min ev, 7 min ictimai bina, 693 məktəb, 855 uşaq bağçası, 695 tibb müəssisəsi, 927 kitabxana, 44 məbəd, 9 məscid, 473 tarixi abidə, saray və muzeylər, 40 min muzey eksponatı, 6 min sənaye və kənd təsərrüfatı müəssisəsi, 160 körpü və digər infrastruktur obyektləri dağıdılıb. Azərbaycanın işğal edilmiş ərazilərində dünya əhəmiyyətli abidələrə Cəbrayılda orta əsrlərə aid 11 və 15 tağlı Xudafərin körpüləri və Tunc dövrünə aid Niftalı kurqanları, Kəlbəcərdə orta əsrlərə aid Gəncəsər və Xudavanq monastırları, Ağdamda XIV əsrə aid Qutlu Musa oğlu türbəsi və Tunc dövrünə aid Üzərliktəpə yaşayış massivi, Xocavənddə Paleolit dövrünə aid Azıx və Tağlar mağarası və Xocalıda Tunc və Dəmir dövrünə aid kurqanlar daxildir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair vasitəçilik prosesi 1992-ci ilin fevral ayında Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi çərçivəsində başlamışdır. ATƏM-in Xarici İşlər Nazirləri Şurasının Helsinkidə keçirilən 24 mart 1992-ci il tarixli əlavə iclasında Minskdə ATƏM-in himayəsi altında, mümkün qədər tez bir zaman ərzində böhranın ATƏM-in prinsip, öhdəlik və müddəaları əsasında sülh yolu ilə həlli istiqamətində danışıqlar üçün forumu təmin edəcək Dağlıq Qarabağa dair konfransın çağırılması qərara alındı.

12 may 1994-cü il tarixində atəşkəsə dair razılıq əldə olundu. ATƏM-in dövlət və hökumət başçılarının 1994-cü il 5-6 dekabr tarixlərində Budapeştdə keçirilən sammitində ATƏM çərçivəsində bütün vasitəçilik səylərinin əlaqələndirilməsi üçün Minsk Konfransı həmsədrlik institutunun yaradılması barədə qərar qəbul olundu. Budapeşt sammiti ATƏM-in fəaliyyətdə olan sədrinə silahlı münaqişənin dayandırılması üçün siyasi razılaşmanın əldə olunması məqsədilə danışıqlar aparmaq tapşırığı verdi. Sözügedən siyasi razılaşma münaqişənin nəticələrini aradan qaldırmalı və Minsk Konfransının çağırılmasına imkan verməli idi.

23 mart 1995-ci ildə ATƏT-in fəaliyyətdə olan sədri Minsk Prosesinin həmsədrlərinə mandat verdi. 2-3 dekabr 1996-cı il tarixlərində keçirilən ATƏT-in Lissabon Sammitində ATƏT-in Minsk Qrupunun həmsədrləri və ATƏT-in fəaliyyətdə olan sədri Dağlıq Qarabağ münaqişəsinin həllinin əsasını təşkil etməli olan prinsipləri təsvir etdi, lakin Ermənistan bu prinsipləri qəbul etmədi və ATƏT-in 54 üzv dövləti arasında bu təklifin əleyhinə səs verən yeganə dövlət oldu.

Azərbaycan tərəfi regionda davamlı sülh, təhlükəsizlik və əməkdaşlıq mühitinin bərqərar olmasına şərait yaradacaq Ermənistan-Azərbaycan münaqişəsinin ədalətli həlli istiqamətində dünya birliyinin daha qətiyyətli və ardıcıl mövqedən çıxış etməsi və Ermənistanı beynəlxalq birliyin nüfuzlu üzvləri olan ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin təklif etdiyi başlıca prinsiplər əsasında münaqişənin birdəfəlik həllini nəzərdə tutan yekun sülh sazişi üzərində işə başlamasına vadar etməsinə ümid bəsləyir.BMT Baş Assambleyanın 2008-ci il martın 14-də qəbul etdiyi qətnamə münaqişənin hüquqi, siyasi və humanitar aspektlərini əhatə edir və həlli prinsiplərini yenidən təsdiqləyir. Bu prinsiplər Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörməti, erməni qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını, işğal edilmiş ərazilərdən məcburi köçkün düşmüş insanların öz doğma yurdlarına qayıtmaq hüququnu, hər iki icmanın Azərbaycanın tərkibində muxtar idarəetmə formasına malik ərazidə birgəyaşayış şərtlərinin təmin edilməsini və ərazilərin işğalı nəticəsində yaradılmış vəziyyətin qeyri-qanuniliyini vurğulayır.

Münaqişə İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində də dəfələrlə müzakirə edilib. Təşkilat beynəlxalq hüququn prinsip və normalarını rəhbər tutaraq, Azərbaycanın hərbi təcavüzə məruz qaldığını elan edib. Hələ 1993-cü ildə təşkilatın xarici işlər nazirlərinin Pakistanın Karaçi şəhərində keçirilən 21-ci iclasında qəbul edilən qətnamə Azərbaycana qarşı erməni təcavüzünü qınayır, erməni qoşunlarının işğal edilmiş bütün ərazilərdən dərhal çıxarılmasını tələb edir, Ermənistanı Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə hörmət etməyə və münaqişənin dövlətlərin ərazi bütövlüyünə, sərhədləri toxunulmazlığına əsaslanan sülh yolu ilə ədalətli həllinə çağırır. Növbəti qətnamələrdə təşkilat BMT Təhlükəsizlik Şurasını münaqişənin siyasi həlli prosesində fəal iştirak etməyə, qəbul olunmuş dörd qətnamənin icrasını tam təmin etməyə və Azərbaycan Respublikasına qarşı təcavüz aktının mövcudluğunu tanımağa çağırır.

2016-cı ildə İƏT-in İstanbulda keçirilən sammitində İƏT çərçivəsində "Ermənistan Respublikasının Azərbaycana təcavüzünə dair Təmas Qrupu" yaradılıb. Təmas Qrupunun tərkibinə 7 ölkə daxildir: Türkiyə, Səudiyyə Ərəbistanı, Pakistan, Malayziya, Mərakeş, Cibuti, Qambiya. Avropa İttifaqı BMT Təhlükəsizlik Şurasının qətnamələrinin yerinə yetirilməsinə, Ermənistan qoşunlarının işğal edilmiş ərazilərdən çıxarılmasına, tərəflərin ərazi bütövlüyünə, beynəlxalq sərhədlərinə hörmət göstərilməsinə və heç bir beynəlxalq legitimliyi olmayan, güc yolu ilə yaradılmış vəziyyətdən imtina edilməsinə çağırır. 2017-ci il noyabrın 24-də Brüsseldə keçirilən Şərq Tərəfdaşlığı Sammitində qəbul edilən birgə bəyannamədə Avropa İttifaqı bütün tərəfdaşların ərazi bütövlüyünü, suverenliyini və müstəqilliyini dəstəkləməklə bu məsələdə qərarlı olduğunu nümayiş etdirib.

2016-cı ilin əvvəlində münaqişənin həlli ilə əlaqədar konkret planlar müzakirə olunduğu vaxtda Ermənistan hərbi təxribata əl ataraq, aprelin 2-də qoşunların təmas xətti boyunca əhalinin sıx məskunlaşdığı əraziləri ağır silahlardan atəşə tutub. Ermənistanın hücumları nəticəsində dinc Azərbaycan əhalisi arasında uşaqlar da daxil olmaqla, 6 nəfər həlak olub, 33 nəfər isə ağır yaralanıb. Öz növbəsində, Azərbaycan Silahlı Qüvvələri düşmənə layiqli cavab verib, əks-həmlə nəticəsində strateji əhəmiyyətli mövqeləri işğaldan azad edib. Aprel hadisələrindən sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndi erməni işğalından tamamilə azad olunub. Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq Sərəncamları əsasında böyük bərpa və quruculuq işləri görülmüş, kənddə normal həyat bərpa olunmuşdur. Ermənistan siyasi və hərbi təxribatlarını 2017-ci ildə də davam etdirib. Ermənistan hərbi hissələri ağır artilleriya qurğularından Azərbaycan Silahlı Qüvvələrinin cəbhəboyu mövqelərini və mülki əhalinin yaşadığı əraziləri intensiv atəşə tutub. Nəticədə, iyulun 4-də Füzuli rayonunun Alxanlı kəndində 2 mülki şəxs qətlə yetirilmiş, bir nəfər isə ağır yaralanmışdır.

Azərbaycanın bütün sülhsevər səylərinə baxmayaraq, Ermənistan destruktiv siyasəti ilə problemin mərhələli şəkildə tənzimlənməsinə mane olur, siyasi və hərbi təxribatlar vasitəsilə danışıqlar prosesini pozmağa çalışır və Azərbaycan ərazilərinin işğalına əsaslanan mövcud status-kvonu qorumağa çalışır. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın beynəlxalq sərhədləri və ərazi bütövlüyü çərçivəsində həll edilməlidir. Hazırda dünya birliyi Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü birmənalı şəkildə tanıyır və dəstəkləyir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açıq şəkildə bəyan edib ki, "Azərbaycanın ərazi bütövlüyü danışıqların mövzusu deyil və heç vaxt olmayacaq... Azərbaycan bu mövqedən bir addım belə geri çəkilməyəcək. Yəni Azərbaycanın ərazi bütövlüyü məsələsində... heç bir güzəşt olmayacaq".

Müasir şəraitdə Azərbaycan müstəqil xarici siyasət həyata keçirir. Bu istiqamətdə əsas diqqət Azərbaycanın ərazi bütövlüyünün tezliklə bərpa edilməsi, regionda sabitliyin və təhlükəsizliyin gücləndirilməsi, Xəzər dənizi hövzəsinin demilitarizasiyası, Avratlantik strukturlara inteqrasiya və s. məsələlərə yönəldilmişdir. Hazırda mühüm geosiyasi məkan kimi Azərbaycan regionda sülhün və təhlükəsizliyin təmin olunması üçün dayaq nöqtəsi, ən perspektivli tərəfdaş hesab edilir. Artıq ölkəmiz bütün regional məsələlərdə əsas iştirakçıdır və dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, "Regiondakı strateji əhəmiyyətli heç bir layihə Azərbaycanın razılığı olmadan reallaşa bilməz". Birinci Avropa Oyunlarının Bakıda keçirilməsi ilə bağlı qərar da, məhz ölkəmizin uğuru olmaqla yanaşı, Azərbaycanın dünyada artan nüfuzunun, geniş imkanlarının beynəlxalq birlik tərəfindən qəbul edilməsinin əyani göstəricisidir. Bu baxımdan, Azərbaycanın müasir geosiyasi şəraitdə inkişaf etmiş dövlət kimi özünü təqdim etməsini, heç şübhəsiz ki, bəzi qüvvələr qəbul edə bilmirlər. Azərbaycan bu kimi tədbirlərdə özünü, mədəniyyətini, xalqının adət-ənənələrini, keçdiyi yolu, tarixini, bir sözlə, sivil dünyanın dövlətin dəyərləndirilməsində istifadə etdiyi digər dəyərlərini dünyaya təqdim edir. Bununla yanaşı, Azərbaycan bu gün İsveçrə, Norveç, Fransa, İngiltərə kimi inkişaf etmiş Avropa dövlətləri ilə bir sırada durur və yüksək səviyyəli tədbirləri həyata keçirir. Azərbaycan bu cür dünya səviyyəli tədbirlərin ən yüksək standartını ortaya qoyursa, o zaman bütün bunlar bu gün antimüsəlman siyasətinin, ovqatının hökm sürdüyü Avropada, Qərbdə bəzi qüvvələri heç də razı salmır. Məhz erməni lobbisi də bunun arxasında dayanır və istəmir ki, Azərbaycan sivil dünyaya olduğu kimi təqdim edilsin. Çünki onlar illərlə Azərbaycan haqqında özlərinin düşündüyü mənfi rəyi formalaşdırmağa çalışmışlar və bu gün də bu anti-Azərbaycan siyasəti davam edir. Avropanın və Qərbin bəzi hüquq-müdafiə, mətbuatla, insan hüquqları, vətəndaş cəmiyyətləri ilə bağlı təşkilatları da erməni lobbisinin təsiri altında anti-Azərbaycan fəaliyyətinə qoşulurlar. Bunların sırasında bəzi hökumətlərarası təşkilatlar və qurumlar "fəallıq" göstərirlər. Bu səbəbdən, dövlət başçısı İlham Əliyevin qeyd etdiyi kimi, "Azərbaycan xalqını bu ədalətsizlik, ikili standartlar siyasəti, riyakarlıq və siyasi mədəniyyətsizlik üzür. Ancaq bu, bizim iradəmizə heç vaxt təsir edə bilməz. Dünyanın bütün yerlərində biz bunu görürük, kim güclüdür, o da haqlıdır. Ona görə də güclü olmaq lazımdır. Biz də bunu çoxdan başlamışıq: güclü ordu, güclü iqtisadiyyat, vətəndaş həmrəyliyi və əlbəttə ki, düşünülmüş siyasət və sosial ədalət".

VAHİD ÖMƏROV,
fəlsəfə üzrə fəlsəfə doktoru

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb

Avantürist və satqın - Əli Kərimli

Bu, bir "emblemdir" ki, ancaq və ancaq AXCP sədri Əli Kərimliyə aiddir. Doğrudur, radikal düşərgənin belə "emblemlər"i çoxdur. Onlar Azərbaycan dövlətçiliyini, onun müstəqilliyini sarsıtmaq məqsədilə əməli fəaliyyət göstərib. Bu sıralamada isə, ilk yeri tutanlardan biri və birincisi Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri Ə.Kərimlidir.

Müxalifətçi partiya sədri adı altında maskalanan Kərimli və yaxın ətrafı qarşısında dayanan əsas məqsəd dövlətimizin strateji hədəflərinin sabotaj olunması, dövlətimizin beynəlxalq aləmdə qazandığı yüksək nüfuzuna xələl gətirməkdir. Belə ki, ölkədə keçirilən hər seçkiərəfəsi "boykot" çağırışları etməsi avantürist və satqın "Ə.Kərimli xəstəliyidir". Bu günə kimi etdiyi bu çağırışları ilə nə əldə edib? Soruşmaq istərdik ki, onları özlərindən başqa, eşidən varmı? Bu barədə düşünüblərmi ki, 26 il müddətində dəfələrlə seçkiləri və referendumları "boykot" etmələrinə rəğmən, nə əldə ediblər? Necə deyərlər, özlərini daha pis duruma sürükləyiblər. Əlbəttə ki, indi xarici qüvvələrin Bakıdakı təmsilçisi Ə.Kərimli kimi avantürist və satqının bu barədə düşünməsi və nəticə çıxarması ona sərf də etmir. Ona sərf edən budur ki, dövlət öz təməllərini möhkəmləndirməkdən ötrü xalqın marağına cavab verən qanun layihələri hazırlasın, bunlar da həmin layihələr ətrafında "varlıqlarını" sübut etməyə çalışsınlar.

Ə.Kərimli bu günlərdə neftin qiymətinin aşağı düşməsi ilə bağlı sosial şəbəkələrdə bildirir ki, "Azərbaycan iqtisadi çətinliklər ərəfəsindədir". Bax,

budur Ə.Kərimlinin əsl siması - uğurumuzu uğursuzluq, qələbəmizi məğlubiyyət kimi qələmə verməklə və hakimiyyəti ittiham hədəfinə çevirməyə cəhd göstərməklə, satqınçılığını nümayiş etdirir. Çünki Ə.Kərimli həmişə anti-Azərbaycan qüvvələrin dəyirmanına su töküb.

Siyavuş Novruzov:
"Əli Kərimli həmişə Azərbaycan xalqının birliyinə, dövlətçilik amalı uğrundakı vəhdətinə kölgə salmağa cəhd edib"

Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov bildirib ki, AXCP-ni müdafiə edənlər vaxtilə Şuşanı, Xocalını, Qarabağın bir sıra digər ərazilərini ermənilərə satanlardır. İndi onlar yenidən ermənіyə işləmək üçün fürsət əldə ediblər. Bu fürsəti onlara Ə.Kərimli verib. Əlbəttə ki, düşmən bu ünsürlərə verdiyi tapşırıqlar müqabilində, nə isə verəcək. Ona görə də, bələlərini, hətta ölkənin həssas dönəmlərində Vətən, dövlət və xalq kimi əhəmiyyətli faktorlar qətiyyən maraqlandırmır. Xəyanətkarları və satqınları birləşdirən məqam da, məhz budur".

S.Novruzovun sözlərinə görə, hazırda Azərbaycanın əldə etdiyi üstün mövqeyə dəstək vermək əvəzinə, Ə.Kərimli və onun rəhbərlik etdiyi AXCP, onun sosial mediadakı söyüş qrupları tam əks-mövqe tutaraq, erməni dəyirmanına su tökməklə məşğuldurlar: "Bununla, qaragüruhçu dəstə xalqın Azərbaycan Prezidentinin yürütdüyü siyasətə etimadının və dəstəyinin daha da yüksəldiyi, cəmiyyətlə hakimiyyət arasında birliyin daha da sıxlaşdığı, Milli Ordumuzun zəfərinin xalqda yüksək əhval-ruhiyyə və Dağlıq Qarabağ münaqişəsinin ədalətli şəkildə, ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunacağına böyük inam yaratdığı bir vaxtda, Ə.Kərimli əsl düşmən xislətini bir daha açıq şəkildə ortaya qoymuş olur. Əsl düşmən kimi uğurumuzu uğursuzluq, qələbəmizi məğlubiyyət kimi qələmə verməklə və hakimiyyəti ittiham hədəfinə çevirməyə cəhd göstərməklə!"

Dünya bazarında neftin qiymətinin aşağı düşməsində istifadə edərək, xalqın "dəstəyini" əldə etmək məqsədi ilə yenə də avantürist çağırışlar etmək istəsə də, xalq artıq Ə.Kərimlinin iyrənc hərəkətlərinə qarşı çıxaraq, bildirir ki, ölkədə vətəndaş qarşıdurması yaratmağa cəhdlər göstərən Ə.Kərimli etdiyi əməllərinə görə cəzasını almaq tələbini irəli sürür. Ona görə də, Azərbaycan iqtidarı dövlətin, millətin maraqlarını heçə sayan, hər kəsi mənəvi terrora məruz qoymağa çalışan Ə.Kərimli və onun kimi antimilli ünsürlər barəsində sərt ölçü götürməli və cəmiyyətdən təcrid etməlidir.

R.HÜSEYNOVA

Feminist qadınları küçələrə çıxmağa məcbur edənlər olub

Siyasi təhliçilər qadınları küçələrə çıxaranların tapılaraq, cəzalandırılmasını vacib hesab edirlər. Martın 8-də bir qrup feminist qadın Bakının mərkəzi küçələrinə çıxaraq, icazəsiz aksiyalarla milli-mənəvi dəyərlərimizə, əxlaqımıza, mənəviyyatımıza zidd olan çağırışlarla çıxış etdilər, şüarlar səsləndirdilər. Həmçinin, onlar polislə təxribat xarakterli qarşıdurma yaratmağa çalışdılar.

Söhbət etdiyimiz müsahiblərimiz bildirdilər ki, Azərbaycanın formalaşmış tarixi dəyərlərinə, ənənələrinə zidd olan bu cür fəaliyyət xaricdən verilən və qranlar qarşılığında reallaşdırılan aksiyalardır.

Vəhdət partiyasının sədri, millət vəkili Tahir Kərimli: **"Bu qadınların hərəkətləri qadın adına vurulan böyük bir ləkədir"**

- Azərbaycan Respublikası müsəlman dövləti içərisində qadına ən yüksək qiymət verən dövlətlərdən biridir. Reallıqlara əsaslanaraq, demək olar ki, bu gün Azərbaycan qadınına qarşı heç bir təhdid yoxdur. Bütün ölkələrdə olduğu kimi, bizdə də məişət zəminində hüquq pozuntuları baş verir və ola bilər ki, hanısısa qadının hüquqları pozulur, lakin bunun qarşısı həmişə alınır, yəni bunun üçün güclü maarifçilik hərəkatı var, məhkəmələr var, qadın təşkilatları var, QHT-lər var və bütün bunlar problemlərin aradan qaldırılmasına yardımçı olur. Ümumiyyətlə, Azərbaycanda qadın hərəkatını, qadına qarşı zorakılıq iddiası ilə çıxış etmək əsassızdır. Əslində, bunun arxasında çox ciddi məkrli planlar durur. Bir sözlə, martın 8-də feminist qadınların Bakının mərkəzi küçələrinə çıxaraq, həyasız çıxışlar və çağırılar etmələri, şüarlar səsləndirmələri və milli- mənəvi dəyərlərimizə zidd olan hərəkətlərə əl atmaları düzgün bir addım deyil. Heç kəs qadınların kütləvi hərəkat keçirməsinin əleyhinə deyil, lakin tərbiyəsizcəsinə tərbiyəsiz şüarlar səsləndirmələri və çıxışlar etmələri ölkəmizi dünyada biabır etməyə hesablanıb. Ona görə də, bu cür hərəkətlərin qarşısı alınmalıdır. Təbii ki, bunların Qərbdə havadarları var, məhz qaynaqları da ordandır. Bu qadınlar, hərəkətləri mənəviyyatımıza, ailə tərbiyəsinə, qadın adına vurulan böyük bir ləkədir. Bir sözlə, bunların qarşısı alınmalıdır.

"Təkamül" partiyasının sədri Teyyub Qənioğlu: **"Bu toplumu qadın adlandırmağın özü günahdır"**

- Bu toplumu qadın adlandırmağın özü günahdır. Yəni onların səsləndirdikləri azadlıq şüarı ilə azadlıq arasında heç bir əlaqə yoxdur. Bu əxlaqdan kənar hadisələri yayanlar və hətta onları bəyənənlər də var. Martın 8-də bir qrup qadın Bakının mərkəzi küçələrinə çıxaraq, icazəsiz aksiyalarla milli-mənəvi dəyərlərimizə, əxlaqımıza, mənəviyyatımıza zidd olan çağırışlarla çıxış etmələri Azərbaycan xanımına yaraşmayan hərəkətlər idi. Bir sözlə, həmin qadınların bu cür hərəkətləri tamamilə yolverilməzdir. Bu qədər qadının birdən-birə küçəyə çıxması özbaşına deyil, yəni kimsə bunları təşkilatlandırıb. Axtarmaq lazımdır ki, kimdir bunlara təşkilatçılıq edən, bu mənəvi dəyərlərimizi kölgəyə salmağa cəhd edən şəxslər və bunlar nə istəyirlər? Həmin qadınların bu cür hərəkətləri bir növ təxribat xarakterli bir qarşıdurma yaratmaq məqsədi daşıyıb. Əlbəttə ki, onların bu cür hərəkətləri düzgün bir hərəkət deyil. Çünki Azərbaycan qadınının əxlaqı dünyaya bəllidir. Yəni dünyada Azərbaycan qadını kimi namuslu, qeyrətli, ailəcanlı qadınları tapmaq çox çətindir. Amma 8 mart günü küçələrə çıxmış həmin qadınların bu cür hərəkətləri Azərbaycan qadınını gözdən salır. Hesab edirəm ki, bu cür hərəkətlərin qarşısı çox ciddi şəkildə alınmalıdır.

GÜLYANƏ

RƏZALƏT DAMĞASI

RƏFİQƏ

Hər bir cinayətkar etdiyi cinayətlərinə görə Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə ittiham olunaraq, həbs edilməlidirlər. Elə "Sülh və Demokratiya İnstitutu" adlı təşkilatın təsisçisi və direktoru Leyla Yunus Azərbaycan qanunları çərçivəsində cəzasını aldı. Sonradan L.Yunus Azərbaycan dövlətinin humanistliyi nəticəsində, azadlığa buraxılıb. Lakin bu satqınlar, bu humanistltyi anlamayaraq, qərəzli bəyanatlarla "siz filankəsi həbsdən azad etməlisiniz" çağırışlar edirlər.

Nə qədər qəribə olsa da, "bulanıq suda balıq tutmaq" sevdasına düşmüş bu məxluq ömrü boyu ermənipərəst mövqeyi ilə seçilib, əməlləri ilə erməni maraqlarının təminatçısı kimi tanınıb. Bir çox hallarda ermənipərəst mövqeyini gizlətməyərək beynəlxalq ictimaiyyətdə ölkəmiz haqqında mənfi rəy formalaşdırmağa çalışıb. Heç kimə sirr deyil ki, onun Azərbaycan haqqında reallıqdan uzaq, böhtan xarakterli məlumatlar yayması dəfələrlə ölkəmizdə ciddi narazılıqla qarşılanıb. Azərbaycan ictimaiyyətinin nümayəndələri düşmən dəyirmanına su tökən L.Yunusun mütəmadi tamaşaya çevirdiyi hay-küyünə tutarlı cavab verib və ölkəmizin nüfuzuna xələl gətirmək istəyən şəxsi qınayıblar. Qınayıblar ona görə ki, necə insan, vətəndaş və ən nəhayət, qadın olasan ki, yaşadığın, torpağı üzərində gəzdiyin, çörəyini yediyin ölkəni belə asanlıqla yada sata biləsən. Amma görünür, bu unsana Vətəni satmaq, Vətənə namərd gülləsi vurmaq elə də çətin məsələ deyil. Çünki L.Yunusun qaranlıq fəaliyyətin qaranlıq sonu belə olur. Bir də siyasi proseslərdə heç nə təsadüfi olmur. Bu, zaman-zaman deyilmiş və praktiki olaraq, təsdiqini tapmış məsələdir. Bu gün ölkədə keçirilən hər seçkidə olduğu kimi, indi də 9 fevral parlament seçkisindən sonra cinayətkar, erməni lobbisinə xidmət edən, damarlarında erməni qanı axan qondarma "hüquq müdafiəçisi" L.Yunusun, əxlaqsız X.İsmayılın 8 mart ərəfəsi qadınlara çağırışlar etməsi tərbiyəsiz və mənəviyyatsızlıqdan başqa, bir şey deyil. Çünki bugünkü hakimiyyətin kimə qulluq etdiyi və gördüyü işlər, nəinki 10 milyonluq xalqın gözü önündədir, eyni zamanda, bütün dünya dövlətləri bu dövlətə, xalqına etdiyi xidmətləri görür və qiymətləndirir. Sizin kimi koronaviruslar isə, ancaq bütün mənliyinizi ermənin 5 qəpiyinə belə satanlarsınız. Belə olmasaydı, canını Vətəni, xalqı yolunda qurban verənləri Xədicə kimi əxlaqsız, L.Yunus kimi ermənіyə yıxılan cinayətkar, Ə.Kərimli, İ.Qəmbər, C.Həsənli və ... kimi erməni qulbeçələri və cinayətkarları erməni xüsusi xidmət orqanlarının təlimatlarını icra etməzdilər.

Bəli, bu gün xalq hər şeyin sonu olduğunu görüb, qaşınmayan yerdən qan çıxarmağın da sonudur və bu günə kimi bayağı aksiyalar vasitəsi ilə heç bir şeyə nail olmamısınız. Artıq tamam, süni şəkildə, zorla ictimai rəyə sırımağa çalışmaqla birə - on qat nifrət qazanırsınız. Bizcə, bu deyilənlərdən sonra artıq şərhə də ehtiyac qalmır. Məhz bu kimi fəaliyyət bu mənəviyyatsız və satqının Vətən xaini simvoluna çevrilməsini labüd edib. Bu labüdlük isə, artıq onun alnında damğaya çevrilib. Özü də rəzalət damğasına.

Astara sakinindən 7 kiloqramdan çox heroin tapılıb

Daxili işlər orqanlarının əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirlərini qətiyyətlə davam etdirirlər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Nəqliyyatda Baş Polis İdarəsinin Su Nəqliyyatında Polis İdarəsinin Lənkəran Xətt Polis Şöbəsinin əməkdaşları Astara şəhər sakinləri K.Hüseynovu və E.Hüseynovu saxlayıblar. Şəxsi axtarış zamanı K.Hüseynovdan 3 kiloqram 685 qram heroin və 3 kiloqram 390 qram tiryək aşkarlanaraq götürülüb. Faktla bağlı araşdırmalar davam etdirilir.

İnsan hüquqları haqqında nəzəriyyələr

Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb

Təbii insan hüquqları nəzəriyyəsi - bu nəzəriyyə XVII-XVIII əsrlərin ideoloqları tərəfindən hazırlanmışdır. Onlar hesab edirdilər ki, hələ dövlət və hakimiyyət mövcud olmadığı dövrlərdə təbii vəziyyət hökm sürürdü; yəni, müasir dövrdə mövcud olan dövlət anlayışı o dövrdə yaranmadığından sosial struktur da tam formalaşmamışdı. Təbii vəziyyətdə həyat azad idi və hər bir şəxs ümumi və təbii hüquqlardan istifadə edirdi (insan təbii vəziyyətdə yalnız təbii qanunun tələblərini yerinə yetirirdi).

Russonun "ictimai müqavilə" nəzəriyyəsinə əsasən, insanlar müqavilə bağlamaqla öz hüquqlarının bir hissəsini dövlətə vermişlər. Buna görə də, əgər hakimiyyət onların ümidlərini doğrultmazsa, onda onlar bu müqaviləni poza bilərlər. Lakin dövlətin insanları təmsil etməsi üçün, ilk növbədə, dövlətin özü olmalıdır. Russonun fikrincə, təbii hüquqlar hər bir insan üçün doğulandan təbii olaraq mövcud olur. Digər alim C.Lokk insanların təbii hüquqları barədə bilikləri genişləndirərək, onları 3 yerə ayırır: yaşamaq hüququ, azadlıq hüququ, mülkiyyət hüququ. Bu hüquqlar insanlara Allah tərəfindən verildiyinə görə, təbii hüquqlardır. Bu hüquqlar insanla birgə doğuduğundan, insanın ayrılmaz hüquqlarıdır, heç kəs heç vaxt və heç bir yerdə bu hüquqları poza bilməz. Bu nəzəriyyə sonrakı illərdə də yayılmış və genişlənmişdir (xüsusilə, Qərbi Avropada). Bu zaman o, nəinki insan hüquqları nəzəriyyəsinin mənbəyi və qanunvericiliyin nəzəri əsası oldu, həmçinin, mütləq monarxiyanın məhdudlaşdırılmasını və onun inqilabi yolla devrilməsinin zəruriliyini əsaslandırmış oldu.

Təbii hüquqların nəzəri müddəaları öz əksini bir sıra dövlətlərin insan hüquq və azadlıqları barədə sənədlərdə, məsələn, ABŞ-ın 1776-cı il İstiqlaliyyət Bəyannaməsində, Fransanın 1789-cu il insan və vətəndaş hüquqları Bəyannaməsində və s. tapdı.

Pozitiv nəzəriyyə (hüquqi pozitivizm) - bu nəzəriyyə XIX əsrin sonu, XX əsrin əvvəllərində meydana gəlmişdir. Hüquqi pozitivizmin tərəfdarları hüququ-dövlətin əmri və göstərişi kimi təfsir edirdilər. Hüquqi sistemə isə onlar insanların sosial-psixoloji xüsusiyyətlərini nəzərə almayan yol hərəkti qaydaları kimi yanaşırdılar. İnsanlar - cinsindən, yaşından və maddi vəziyyətindən asılı olmayaraq yol hərəkətinin iştirakçılarıdırlar. Buna görə də, bu nəzəriyyə insan üçün heç bir təbii hüquq müəyyən etmirdi. İnsan yalnız qanunla müəyyən olunan hüquqlara malikdir. İnsan hüquqları insanın cəmiyyətdə bu və ya digər fəaliyyət növü ilə məşğul olmasına və davranışına dövlət tərəfindən verilən icazədən başqa bir şey deyildir. Bu səbəbdən və müvafiq nəzəriyyəyə əsasən, insan hüquqları qanundan kənar mövcud ola bilməz. Buradan belə nəticəyə gəlmək olar ki, insan hüquqlarının mənşəyi insanın şəxsiyyəti, qabiliyyəti və tələbatı ilə bağlı deyil; o, yalnız dövlətin qanunları ilə əlaqədardır.

İnsan hüquqlarının rasional nəzəriyyəsi - bu nəzəriyyətinin banisi olan alman filosofu İ.Hegelin fikrincə, hüquq - azad iradə azadlığının həyata keçirilməsi və ya "azadlığın mövcudluğu"dur.

Hüququn mənbəyini Hegel tərəfindən kainatın məntiqliyi, nizamlılığı, qanunauyğunluğu, bir sözlə, rasionallığı kimi başa düşülən ümumbəşəri məntiq təşkil edir. Hüquqi qanunlar - insanlardan irəli gələn qanunlardır. İnsan hüquqda öz idrakını tapmalı və hüququn məntiqiliyini ətraflı şəkildə müəyyən etməlidir. Əgər qanunun məntiqi olmazsa, onda o, ümumiyyətlə, hüquq anlayışına uyğun gəlmədiyindən ("məntiqi olan hər şey həqiqi olmalıdır"), hüquqa ziddir.

Hegel pozitiv və təbii hüquqları fərqləndirir. Pozitiv hüquqlar - ümumi şəkildə müəyyən olunmuş hüququn bütün növləridir: dövlətin qanuneviciliyi, adət hüququ və məhkəmə presedentləri. Təbii hüquqlar dedikdə isə, dövlətdən asılı olmayan hüquqlar başa düşülür. Bu hüquqlar insanın təbiəti ilə müəyyən olunur. Bu nəzəriyyə üzrə insan hüquqları hər bir insanın iradə azadlığının olmasından və anadan olması (təbiəti) ilə müəyyən təbii hüquqları malik olmasından irəli gəlir. İradə azadlığı daha çox mülkiyyətə sahib olmada öz əksini tapır. Buna görə də, insan hüquqları mülkiyyətlə müəyyən olunur. Mülkiyyət hüququnun pozulması azadlığın pozulmasıdır. Hüquq və vəzifələr, Hegelin fikrincə, bir-birilə əlaqəli anlayışlardır: hüquqa malik olma vəzifə daşımaqdır və əksinə; insan vəzifə daşımaqla hüquqa malik olur, hüquqa malik olmaqla vəzifə daşıyır.

İnsan hüquqlarının marksizm (mübadilə) nəzəriyyəsi - insan hüquqlarının mübadiləsi ilə bağlı ayrı-ayrı fikirlər hələ Aristotelin dövründə bir çox filosoflar tərəfindən söylənməyə başlamışdı. Yalnız XIX əsrin ortalarında bu barədə müxtəlif və pərakəndə fikirlər marksizm təlimi ilə sistemləşdirildi. Qeyd etmək lazımdır ki, K.Marks indi də mövcud olan bir real ziddiyəti göstərmişdi; bəyan olunan hüquqlarla onların reallıqda həyata keçirilməsi arasındakı ziddiyyət. Tarix göstərdi ki, təkamül özü-özlüyündə bu ziddiyyəti həll etmir. Bu halda, yəni təkamüldən sonra da insan hüquqlarının reallıqda həyata keçirilməsi üçün uzunmüddətli iş görmək, proqressiv qanunvericilik bazası, siyasi iradə və müəyyən iqtisadi yüksəliş səviyyəsi lazımdır.

İnsan hüquqlarının təbii təkamül nəzəriyyəsi - bu nəzəriyyəyə görə insan hüquqları insan və cəmiyyətin, eləcə də, hüquqi düşüncənin uzunmüddətli təkamülünün məhsuludur. Bu istiqamətin əsasında aşağıdakı fikir durur: dünyada heç nə heç nədən yaranmır. Nəyinsə yalnız mövcud olması yeni bir şeyin yaranmasına səbəb ola bilər. Torpaq, cəmiyyət, istənilən əşya - bunların hamısı öz-özünə hərəkət etmənin, daxili inkişafın məhsullarıdır. Bu nöqteyi-nəzərdən müasir cəmiyyət inkişafın, qədim cəmiyyətin çevrilməsinin məhsuludur. Müasir insan isə antropogenezin məhsuludur. Bir sözlə, istənilən əşyanın genezisi onun özündədir. İnsan hüquqları da, məhz bu yolla yaranmışdır. Buradan belə nəticəyə gəlmək olar ki, hüquqlar da özünün insan və cəmiyyətin təbii vəziyyətinə aid ilkin yaranma və inkişaf tarixinə malikdir.

Bu nəzəriyyəyə əsasən, insan olmadan hüquq ola bilməz. Hüquq olmadan isə insan ola bilməz. Bu mənada, insan hüquqları, məhz özünün sosial mahiyyəti ilə insanın özüdür. İnsan hüquqlarının yaranması və insanın yaranması vahid prosesdir. Təkamülçülər belə güman edirlər ki, müəyyən insan hüquq və azadlıqlarına yalnız insanlar deyil, bütün istənilən əşya da özünün mövcud olduğu dövr ərzində mövcud olmaq hüququna malik olur. İnsan təkamülün və təbii inkişafın ən yüksək məhsuludur. O, təbiətdən ayrılmazdır. Buna görə də insan hüquqları da hüququn ən yüksək forması və hüququn inkişafının ən yüksək mərhələsidir. İnsan hüquqları insanla birgə inkişaf etmişdir və hüquq ideyası, məhz bu inkişafdadır. İnsan hüquqları barədə bu nəzəriyyətinin qanunauyğunluğu və əsaslandırılması bunlardan ibarətdir.

İnsan hüquqlarının bütün tarixi ərzində, xüsusilə, XX əsrdə bərabərlik prinsipinin mahiyyəti daha da genişləndirilmiş və daha geniş insanlar dairəsinə şamil olunmuşdur. XX əsrin ortalarından isə bu sahədə daha böyük irəliləyişlər olmuş, insan hüquqları beynəlxalq səviyyəyə çıxarılmaqla, bəşəriyyətin ən mühüm dəyəri kimi bəyan olunmuşdur. "İnsan hüquqları" anlayışı 1945-ci ildə BMT Nizamnaməsinin qəbul edilməsi ilə adi həyatda işlənməyə başlandı və BMT-nin fəaliyyət proaktikasında "təbii hüquqlar" terminini əvəz etdi, sonradan müvafiq beynəlxalq sənədlərin qəbul edilməsi ilə daha da inkişaf etməyə başladı.

İnsan hüquqları haqqında Beynəlxalq Billdə insan hüquqlarının universal konsepsiyası təsbit olunmuşdur. Bura dini nəzəriyyələr, eləcə də, bir sıra xalqların siyasi, iqtisadi, əxlaqi və hüquqi təlimləri də daxil edilmişdir. Bu nəzəriyyənin əsasında insan ləyaqətinin şəxsiyyətinin ən yüksək dəyəri kimi müəyyən olunması durur. 1948-ci ilədək insan hüquqları milli səviyyədə müxtəlif dövlətlərdə təsbit olunmuşdur. İnsan hüquqları haqqında Ümumi Bəyannamənin qəbulu insan hüquqlarının dünya svilizasiyasının dəyəri kimi müəyyən olunmasını bildirirdi.

İnsan hüquqlarının universal konsepsiyası aşağıdakı kimi müəyyən oluna bilər. İnsan ləyaqətinin və insan hüquqlarının daha yüksək mütləq dəyərlər kimi qəbul olunması; insan hüquqlarının dövlətin iradəsindən asılı olmaması və onların ayırlmazlığı; ləyaqət və hüquqlar baxımından insanların bərabərliyi; insan hüquqlarının tiraniya, istismar və əsarət, qorxu və ehtiyac, özbaşınalıq və cinayətkarlıqla bir araya sığmaması; mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqların bütün sisteminin qarşılıqlı əlaqəsinin və bu hüquqların vəzifələrlə əlaqəsinin tanınması; demokratiya və ədalət mühakiməsi dəyərlərinin tapnınmamı; insan hüquqlarının beynəlxalq və dövlətdaxili təminat sisteminin müəyyən olunması.

İnsan hüquqlarının beynəlxalq səviyyədə bəyan olunması və bu sahədə müvafiq konvensiyanın qəbul olunması prosesi ərzində, XX əsrin II yarısı insan hüquqlarının daha genişmiqyaslı bəyan olunmasında, insan hüquqlarının yeni ideologiyalarının formalaşmasında, eləcə də, bu məqsədlərlə dünya birliyində geniş hərəkatın inkişaf etdirilməsində mühüm mərhələ oldu. Bu mərhələ, həmçinin, onunla xarakterikdir ki, bu zaman insan hüquqları xüsusi xartiyalarda deyil, ayrı-ayrı dövlətlərin konstitusiyalarında və bütün dünyada insan hüquqlarının həyata keçirilməsi və müdafiəsinə istiqamətlənmiş paktlarda təsbit olunmuşdur.

İnsan hüquqları ideologiyası bu gün də bu sahədə müxtəlif fikirlərin toqquşmasına baxmayaraq, inkişaf etməkdə davam edir. Müasir dövrün əsas xüsusiyyətlərindən biri də odur ki, insan hüquqlarının prioritetliyi ideyası insanların təfəkküründə daha çox möhkəmlənir, bu ideya yeni mühitə çıxmaqla, ümumi ideal və insanların praktiki fəaliyyətinin məqsədinə çevrilmişdir.

Vahid Ömərov,
fəlsəfə üzrə fəlsəfə doktoru

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

11 mart

Səs

Son səhifə

Ancelina Coli britaniyalı milyarderə gizli ərə gedib

Hollivud ulduzu Ancelina Coli gizlin ərə gedib. 44 yaşlı aktrisanın adı açıqlanmayan britaniyalı milyarderlə ailə həyatı qurduğu deyilir. Cütlüyün toyu isə Ancelina və Bredin Fransada evləndiyi Miroval qəsrində keçirilib. Aktrisa özü isə bu barədə açıqlama verməkdən imtina edib./teleqraf

Messidən vəfa borcu:

Ronaldinyo üçün 4 milyon avro ayırdı!

"Barselona"nın futbolçusu Lionel Messi hazırda həbsdə olan sabiq komanda yoldaşı Ronaldinyoya kömək etməyə qərar verib. Qol.az xarici KİV-lərə istinadən xəbər verir ki, argentinalı hücumçu Braziliya millisinin sabiq üzvü və qardaşının həbsdən çıxarılması üçün vəkil tutub. Messinin Ronaldinyonun zaminə buraxılmasına görə 4 milyon avro ödəməyə hazır olduğu vurğulanıb.

Qeyd edək ki, Messinin "Barselona"dakı ilk rəsmi qolunun ötürməsinin məhz Ronaldinyo verib. Xatırladaq ki, Ronaldinyo və qardaşı Paraqvayda saxta pasport təqdim edərkən saxlanılıblar. Məhkəmə saxta sənədlərin düzəldilməsində ittiham olunan sabiq futbolçu barədə 6 aylıq həbs qərarı verib.

Məşhur boksçu ingilis klubunu almaq istəyir



Əfsanəvi boksçu Floyd Meyvezer İngiltərədən klub almağa hazırlaşır. Qol.az xəbər verir ki, 43 yaşlı dünya çempionu Premyer Liqa təmsilçisi "Nyukasl"ın səhmlərini almaq istəyir. Bunu keçmiş boksçu Britaniya mətbuatına açıqlamasında özü deyib: "ABŞ-da bu idman növünə sokker deyirik. "Nyukasl" inanılmaz klubdur. Klubu almağımı istəyirsizsə, mənə xəbər verin". Meyvezer bundan əvvəl də "Nyukasl" azarkeşləriylə bir görüş keçirib və klubu satın almaqda maraqlı olduğunu onlara bildirib. Qeyd edək ki, amerikalı idmançı karyerasını 2017-ci ildə başa vurub. O, peşəkar boksda 50 döyüş keçirib və 27-si nokaut olmaqla hamısında qalib gəlib.

Latviyada qadınlar kişilərdən 10 il daha uzun ömür sürürlər

Latviya sakinlərinin 54 faizini qadınlar təşkil edir. Bu, Avropa İttifaqı (Aİ) ölkələri arasında ən yüksək göstəricidir. Latviya qadınları orta hesabla kişilərə nisbətən 10 il daha uzun ömür sürürlər. Bu barədə Latviya Mərkəzi Statistika İdarəsi (MSİ) məlumat yayıb. MSİ məlumatına əsasən, 2018-ci ildə aparılan sorğunun nəticələrinə görə, kişilərin 52 faizi fiziki vəziyyətlərini "yaxşı" və "çox yaxşı" kimi dəyərləndiriblər. Qadınlar arasında isə nikbinlər 9 faiz azlıq təşkil edir (43 faiz). Latviyada qadınlar orta hesabla 79,3 il, kişilər isə cəmi 69,2 il ömür sürürlər.

Kolleclərə qəbul olmaq üçün 16 mindən çox abituriyent ərizəsini təsdiqlədib

2020/2021-ci tədris ili üçün Azərbaycan Respublikasının orta ixtisas təhsili müəssisələrinə (kolleclərə) ümumi (9 illik) orta təhsil bazasında abituriyentlərin ərizə qəbulu davam edir. Dövlət İmtahan Mərkəzindən AZƏRTAC-a bildirilib ki, orta ixtisas təhsili müəssisələrinə ərizə qəbulu martın 11-dək internet vasitəsilə aparılır. Bu gün saat 12:50-yə olan məlumata görə, müsabiqədə iştirak etmək üçün 16587 abituriyent (Azərbaycan bölməsi - 16075; rus bölməsi - 512) ərizəsini təsdiqlədib.

Abituriyentlər ekabinet.dim.gov.az internet səhifəsində "Şəxsi kabinet" yaratdıqdan sonra müvafiq ad və paroldan istifadə etməklə Dövlət İmtahan Mərkəzinin internet səhifəsinə (eservices.dim.gov.az/erizetex/erize) daxil olub, "Abituriyentin elektron ərizəsi" formasını doldurur və ərizəni təsdiqləyirlər.

ŞOK HADİSƏ:

Anasının başını kəsib beynini çıxartdı

İngiltərənin Aşinqton şəhərində dəhşətli qətl hadisəsi baş verib. 36 yaşlı Odessaya Kari adlı qadın eyniadlı 73 yaşlı anasının başını bıçaq və qayçı ilə kəsib. Bundan sonra Odessaya, yaşlı qadının beynini kəllə sümüyündən çıxarıb. Hadisəni ilk görən onların ailə dostu olub. O bildirib ki, 73 yaşlı qohumunu bağçada qanlar içində görüb. Daha sonra qatili görən qadın polislərə ifadəsində Odessayanın onu gördükdən sonra əlindəki mavi çantadan anasının kəsilmiş başını diqqətlə çıxardıb sonra gülümsəyərək alnından öpüb çantaya qoyduğunu söyləyib. Bundan sonra, hadisə yerinə polis cəlb olunub. Axtarış əməliyyat sistemindən sonra polislər 73 yaşındakı Odessa Karinin başsız cəsədini evdə yataqda tapıblar. Belə ki, qadının kəsilmiş başı və beyni də yataqda olub.

Dəhşətli qətli törədən36 yaşlı qadın hadisə yerində həbs olunub. İlkin dindirilmə zamanı O.Kari qətli səbəbsiz törətdiyini etiraf edib. Faktla bağlı araşdırma davam edir./Unikal.org

Keçmiş məhkumdan tapança və patron darağı götürülüb

Polis əməkdaşları əllərdə qanunsuz saxlanılan silah-sursatın aşkarlanaraq götürülməsi məqsədilə növbəti əməliyyat tədbiri keçiriblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Nəsimi Rayon Polis İdarəsinin 21-ci polis bölməsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında keçirdikləri əməliyyat tədbiri nəticəsində Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş A.İslamovdan nömrəsi silinmiş "Makarov" markalı tapança, patron darağı və yeddi patron götürülüb. Sabunçu rayonunun Nardaran qəsəbəsi sakini S.Hüseynov müvafiq sənədləri olmayan, nömrəsi silinmiş "İJ-16" markalı tüfəngi polis əməkdaşları tərəfindən aparılan profilaktiki tədbirlər nəticəsində könüllü olaraq rayon polis idarəsinin 42-ci polis bölməsinə təhvil verib.

Başsağlığı

Bəhruz Quliyev və SƏS Media Qrupun redaksiya heyəti Xalq artisti, tanınmış rejissor və yazar Əflatun Nemətzadəyə qardaşı

Ağahüseyn NEMƏTOVUN

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Allah rəhmət eləsin.

ELAN

Azərbaycan Respublikası Vəkillər Kollegiyası tərəfindən vəkil Quliyeva Nurlanə Nazim qızının adına verilmiş 1627 VK nömrəli "Vəkil vəsiqəsi" itdiyi üçün etibarsız sayılır.

Baş redaktor:

Bəhruz Quliyev

Baş redaktorun müavinləri:

Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.

Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.

"Azərbaycan" nəşriyyatında çap olunur

Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 4600